AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI

# ülfət

AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ

QƏZET 1991-Cİ İLDƏN ÇIXIR

CÜMƏ AXŞAMI, 20 YANVAR 2022-Cİ İL / № 02 (1269)

WWW.ULFET-AZ.COM / ULFET-AZ@MAIL.RU

## Prezident İlham Əliyev xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin Bakıda ucaldılan abidəsinin açılışında iştirak edib



BAX SƏHİFƏ: 2

## Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə

**Hörmətli Səttar müəllim!**

30 noyabr 2021-ci il tarixdə Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin qəzaya uğraması nəticəsində şəhid olmuş hərbi qulluqçuların ailələrinin sosial təminatının gücləndirilməsi və sosial müdafiəsinin yaxşılaşdırılması məqsədilə göstərdiyiniz maddi və mənəvi dəstəyə görə minnətdarlığımı bildirirəm.

Sizə və rəhbərlik etdiyiniz Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının üzvlərinə vətənimizin tərəqqisi və inkişafı naminə gördüyünüz işlərdə müvəffəqiyyətlər arzulayıram.

**Elçin QULİYEV,**
**Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik**



### Türkiyənin həmkarlar ittifaqı təşkilatı şəhid ailələrinə maddi dəstək üçün AHİK-in hesabına vəsait köçürüb

BAX SƏHİFƏ: 3

### AHİK 20 Yanvar şəhidlərinin ailələrinə maliyyə dəstəyi göstərib

BAX SƏHİFƏ: 4

### NÖVBƏTİ İL ÜÇÜN QARŞIDA DURAN VƏZİFƏLƏR MÜZAKİRƏ OLUNUB

BAX SƏHİFƏ: 4

### Dəyərli kadrların dəyərləndirilməsi

*gənc liderlərdə də gələcəklərinə inam yaradır*

BAX SƏHİFƏ: 3

### Görülən işlər diqqətə çatdırıldı

BAX SƏHİFƏ: 8

### Ağdam şəhəri ikinci doğum tarixini yaşayacaq

BAX SƏHİFƏ: 4

### Vətəni sevmək nümunəsi

BAX SƏHİFƏ: 6

### Faciəli gecə xatırlandı

BAX SƏHİFƏ: 6

## COVID-19 infeksiyasına son sutkada 1151 yoluxma faktı qeydə alınıb,




**Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 1151 yoluxma faktı qeydə alınıb, 543 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 9 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 628 min 166 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 610 min 23 nəfər müalicə olunaraq sağalıb, 8 min 550 nəfər vəfat edib. Aktiv xəstə sayı 9 min 593 nəfərdir.

**Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 9 min 344, bu günə qədər isə ümumilikdə 6 milyon 28 min 671 test icra olunub.**

### Hüquq məsləhətxanası



BAX SƏHİFƏ: 8

### Həmkarlar ittifaqına üzv ol - iş yerinə təminat al!

*(Əmək Məcəlləsinin 80-ci maddəsinə əsasən, işəgötürən həmkarlar ittifaqı üzvünü bu təşkilatın razılığı olmadan işdən azad edə bilməz)*

### Beynəlxalq

### İşçilərin üzləşdiyi problemlər və onların həlli

BAX SƏHİFƏ: 7

## Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının İcraiyyə Komitəsi adından Fransa Respublikasının Prezidenti Emmanuel Makrona

## MÜRACİƏT

**Cənab Prezident!**

**Ölkənizdə Respublikaçılar partiyasının prezident seçkilərində namizədi Valeri Pekress 2021-ci il dekabrın 22-də müşavirləri ilə birlikdə Azərbaycan Respublikasının beynəlxalq birlik tərəfindən tanınmış sərhədlərini qeyri-qanuni yolla keçərək Azərbaycanın Qarabağ bölgəsinin Xankəndi şəhərinə səfər etmişdir. Bu, beynəlxalq qanunların kobud şəkildə pozulması deməkdir.**

Xanım Pekres və onun müşavirləri, həmçinin erməni diasporunun nümayəndələri kütləvi informasiya vasitələrində münaqişəyə dini don geyindirməklə, insanların dini hissiyatlarına toxunur və Azərbaycan dövlətinə, xalqına qarşı çirkin fikirlər söyləməkdən çəkinmirlər.

Təbii ki, bütün sivil ölkələrdə olduğu kimi, Fransada da prezidentliyə namizədliyini irəli sürmüş hər bir vətəndaş öz ölkəsi ərazisində seçki kampaniyasını aparmaqda sərbəstdir. Lakin onun digər bir ölkəyə - Azərbaycana gəlməsi respublikamızın müvafiq qurumlarına etdiyi müraciətə icazə verildiyi təqdirdə baş tuta bilər. Təəssüf ki, xanım Pekress beynəlxalq qanunları tapdalayaraq gizli şəkildə Qarabağa səfər etmiş, orada görüş keçirmişdir.

**Fransanın Avropa və Xarici İşlər üzrə naziri Jan İv Lö Drian yanvarın 18-də ölkənizin Milli Assambleyasında diplomata yaraşmayan tərzdə açıqlama verərək təxribatçı məqsədlərlə Azərbaycan Respublikasının Prezidentini təhqir etməyə cəhd göstərən Milli Assambleyanın Respublikaçılar partiyasından olan üzvü Erik Siottiyə cavab verməli və ona həddini bildirməli idi. Lakin əksinə, nazir Lö Drian Azərbaycan Respublikası Prezidentinin Valeri Pekressin Azərbaycanın Qarabağ bölgəsinə qanunsuz səfəri ilə əlaqədar söylədiyi fikirlərin "forma və mahiyyət etibarilə qəbuledilməz olduğunu" bildirib. Heyif ki, Fransa kimi böyük dövlətçilik ənənələri olan ölkənin xarici işlər naziri bunu anlamır. Xatırladırıq ki, xarici vətəndaşlar Azərbaycan ərazisinə qanunsuz səfər etdikdə onlara münasibətdə ya inzibati, ya da ölkənin Cinayət Məcəlləsinə uyğun olaraq müvafiq ölçü götürülür. Fransa qanunlarını pozaraq Azərbaycan Respublikası vətəndaşı Fransa ərazisinə daxil olsaydı, yəqin ki, ona qarşı müvafiq tədbirlər görülərdi.**

Bütün bunları biz Avropanın aparıcı dövlətlərindən biri sayılan Fransa-Azərbaycan münasibətlərinə uyğun hesab etməməklə, bu yaxınlarda Brüsseldə sizin təşəbbüsünüzlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə görüşünüz zamanı verdiyiniz ismarıclar ölkənizin xarici işlər naziri Lö Drianın açıqlaması ilə ziddiyyət təşkil edir və Azərbaycan-Fransa münasibətlərinin normallaşmasına xidmət etmir.

Prezident İlham Əliyevin Fransa nümayəndələrinin Azərbaycanın ərazilərinə qanunsuz səfəri ilə bağlı açıqlaması tam qanunidir, bu, Azərbaycan qanunlarını pozan şəxslərə qarşı tam adekvat bir cavabdır.

Fransa hər şeydən əvvəl Ermənistanla Azərbaycan arasında 30 ilə yaxın davam edən münaqişənin həll edilməsi üçün yaradılan ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri olmaqla, həmsədr dövlət kimi, tərəflər arasıqda neytrallığı qorumaq öhdəliyinə malikdir. İki dövlət arasında 1993-cü il dekabrın 20-də imzalanan müqavilə dostluq və əməkdaşlığın inkişaf etdirilməsinə xidmət edir və onların üzərinə beynəlxalq hüquq və norma prinsiplərinə uyğun olaraq öhdəliklər qoyur.

**Cənab Prezident!**

**Fransa milli qanunvericiliyinin tələblərini nəzərə alaraq bu kimi qanunsuz səfərlərin qarşısının alınması və gələcəkdə belə halların təkrar olunmaması üçün müvafiq tədbirlərin görülməsini rica edirik.**

### AHİK İcraiyyə Komitəsi:

**AHİK-in sədri, Milli Məclisin deputatı**
**S.Möhbalıyev**

**AHİK sədrinin I müavini**
**İ.Əliyev**
**AHİK sədrinin müavini**
**A.Dadaşov**
**AHİK sədrinin müavini**
**C.Alxasov**
**AHİK sədrinin müavini**
**Ə.Ağasiyev**
**AHİK sədrinin müavini**
**H.Osmanov**

Aviasiya İşçiləri HİRK-in sədri
**M.Əsədov**
Avtomobil Nəqliyyatı və Yol Təsərrüfatı İşçiləri Hİ-nin sədri
**H.Kərimov**
Azərbaycan Milli Elmlər Akademiyası İşçiləri Azad Hİ-nin sədri
**H.Qurbanov**
Bələdiyyə İşçiləri HİRK-in sədri
**M.Xəlilov**
"Baku Stil Kompani" MMC İşçiləri Hİ Birliyinin sədri
**A.Abbasov**
Dəmiryolçuların Müstəqil HİRK-in sədri
**F.Bağırov**
Dəniz Nəqliyyatı İşçiləri HİRK-in sədri
**S.Allahverdiyev**
Elektroenergetika və Elektrotexnika Sənayesi İşçiləri HİRK-in sədri
**A.Atakişiyev**
Fövqəladə Hallar Nazirliyi İşçiləri Hİ-nin sədri
**M.İsmayılov**
Gömrük İşçiləri Həmkarlar İttifaqı Birliyinin sədri
**S.İbrahimov**

"Xidmət-İş" Hİ Federasiyasının vitse-prezidenti
**C.İsmayılov**
"İnşaat-İş" Hİ-nin sədri
**U.Hüseynov**
Su Təsərrüfatı İşçiləri HİRK-in sədri
**A.Məmmədov**
"Kənd-Qida-İş" Hİ Federasiyasının sədri
**T.Quliyev**
Metal İşçiləri Hİ Federasiyasının prezidenti
**B.Yusifov**
Mədəniyyət İşçiləri HİRK-in sədri
**C.Səttarova**
Müdafiə Sənayesi İşçiləri HİRK-in sədri
**S.Mahmudov**
Metropoliten İşçiləri Hİ-nin sədri
**A.Mərdanov**
Naxçıvan Muxtar Respublikası Hİ Şurasının sədri
**A.İbrahimov**
Neft və Qaz Sənayesi İşçiləri HİRK-in sədri
**C.Əliyev**
Nəqliyyat, Rabitə və Yüksək Texnologiya İşçiləri HİRK-in sədri
**R.Səfərov**
Sahibkarlıq, Özəl Elm və Yüngül Sənaye İşçiləri HİRK-in sədri
**M.Salmanov**
Səhiyyə İşçiləri HİRK-in sədri
**E.Əfəndiyev**
Təbii Sərvətlər və Ekologiya İşçiləri HİRK-in sədri
**T.Quliyev**
Təhsil İşçiləri Azad HİRK sədrinin birinci müavini
**H.Nağıyev**
Yerli Sənaye və Kommunal-Məişət Müəssisələri İşçiləri HİRK-in sədri
**T.Hacıyev**

# PREZİDENT İLHAM ƏLİYEV XEYRİYYƏÇİ HACI ZEYNALABDİN TAĞIYEVİN BAKIDA UCALDILAN ABİDƏSİNİN AÇILIŞINDA İŞTİRAK EDİB



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 18-də xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin Bakıda ucaldılan abidəsinin açılışında iştirak edib.**

**AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı metronun "İçərişəhər" stansiyasının qarşısındakı meydanda ucaldılan abidənin üzərindəki örtüyü götürdü.**

**Qeyd edək ki, Prezident İlham Əliyevin Sərəncamı ilə ucaldılan abidə bürüncdəndir. Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyəti 2019-cu ildə heykəlin hazırlanması üzrə açıq müsabiqə elan etmişdi. Müsabiqəyə təqdim olunan layihələr arasından Xalq rəssamı Xanlar Əhmədovun layihəsi qalib seçilib. Abidənin önündə Heydər Əliyev Fondu tərəfindən Azərbaycan və ingilis dillərində hazırlanan müvafiq məlumat lövhəsi quraşdırılıb. Eyni zamanda, Heydər Əliyev Fondu görmə qabiliyyətini itirmiş şəxslərin cəmiyyətə inteqrasiyasına dəstək məqsədilə lövhədə əks olunan məlumatları Brayl əlifbası ilə də təqdim edib.**

**Sonra dövlətimizin başçısı çıxış etdi.**





## Prezident İlham Əliyevin çıxışı

**- Bir neçə dəqiqə bundan əvvəl Zeynalabdin Tağıyevin abidəsinin açılışını qeyd etdik. Abidə metronun girişinə yaxın olduğuna görə, insanlara problem yaratmamaq üçün, mən əziz xalqımı bu münasibətlə buradan təbrik edirəm.**

Bu abidənin açılması çox əlamətdar hadisədir. 2020-ci ildə mənim tərəfimdən Zeynalabdin Tağıyevin abidəsinin ucaldılması ilə bağlı müvafiq Sərəncam imzalanmışdır. Açıq müsabiqə elan edilmişdir və Xalq rəssamı, məşhur heykəltaraş Xanlar Əhmədovun işi müsabiqədə qalib gəlmişdir. Ondan sonra mənə abidənin ucaldılması üçün bir neçə yer təklif edildi və mən məhz bu yeri seçdim. Çünki Zeynalabdin Tağıyevin adına layiq olan bir yerdir, Bakının tarixi yerlərindən biridir, şəhər sakinlərinin ən sevimli yerlərindən biridir, tarixi qala divarının önündədir. Tağıyevin abidəsinin məhz bu yerdə yerləşməsinin böyük rəmzi mənası var. Çünki Zeynalabdin Tağıyev ömrü boyu Bakının inkişafına, abadlaşmasına, ümumiyyətlə, Azərbaycanın inkişafına böyük töhfələr vermişdir.

**Çox zəngin adam idi, amma hər kəs bilir ki, çox kasıb ailədə böyümüşdü və sərvətini öz zəhməti hesabına qazanmışdır. Ancaq tarixdə o, zəngin adam kimi yox, məhz xeyriyyəçi kimi qalmışdır. Əgər onun xeyriyyəçilik fəaliyyəti olmasaydı, yəqin ki, o, Azərbaycan xalqının yaddaşında qalmazdı. Onun təşəbbüsü ilə Azərbaycanda bir çox önəmli layihələr həyata keçirilmişdir. Onların arasında, əlbəttə ki, Bakıya təmiz içməli suyun gətirilməsi layihəsini xüsusilə qeyd etməliyəm. Şollar su kəməri bu günə qədər fəaliyyətdədir, bu günə qədər Bakını, Sumqayıtı təmiz içməli su ilə təmin edir. Bu kəmərin tikintisi üçün Zeynalabdin Tağıyev öz vəsaitindən istifadə etmişdir. Məhz onun təşəbbüsü və maliyyə dəstəyi ilə Bakıda teatr binası inşa edilmişdir, bir çox sənaye müəssisəsi inşa edilmişdir, azərbaycanlı qızlar üçün ilk dünyəvi məktəb açılmışdır. Deyə bilərəm ki, müsəlman aləmində ilk dünyəvi məktəb məhz Bakıda azərbaycanlı qızlar üçün Tağıyevin vəsaiti və təşəbbüsü ilə yaradılmışdır. Bakıda tramvay xətlərinin açılması da Tağıyevin adı ilə bağlıdır. Bu gün Bakıya əlavə gözəllik verən, Bakının memarlığına töhfə verən bir çox gözəl binaların müəllifi, yəni ki, təşəbbüskarı məhz Tağıyev olmuşdur. Biz Bakının müxtəlif yerlərində onun memarlıq əsərlərini görə bilərik. Baxmayaraq ki, o, kasıb ailədə doğulub və o dövrün mühitində böyüyüb, amma Bakının gözəlliyini təmin etmək üçün xaricdən memarlar dəvət etməsi onun mütərəqqi fikirdə olmasından xəbər verir. Qızlar üçün məktəbin açılması gələcəyə yönəlmiş bir addımdır. Hər kəs bilir ki, o, yüzlərlə tələbəni Rusiyaya və Avropaya göndərməklə onların təhsil xərcini öz üzərinə götürmüşdür və bu da gələcəyə yönəlmiş bir addım idi, gələcəyi düşünürdü. Mən artıq bunu bir dəfə demişəm, bir daha demək istəyirəm ki, o tələbələrin arasında mənim babam Əziz Əliyev də olmuşdur. Əziz Əliyev qədim Azərbaycan torpağı olan İrəvan xanlığı ərazisində doğulmuşdur. O da Tağıyev kimi kasıb ailədən idi, oxumaq istəyirdi. Tağıyevə məktub yazmışdı, xahiş etmişdi ki, ona maddi kömək göstərilsin. Tağıyev də onu, təbii ki, tanımırdı, sadəcə olaraq, bir gəncin təhsilə olan belə marağını nəzərə alaraq ona pul göndərmişdir və Əziz Əliyev bu pul hesabına o vaxt Sankt-Peterburq Hərbi Tibb Akademiyasında oxumuşdur. Hesab edirəm ki, bu hadisə onun gələcək taleyində həlledici rol oynamışdır. Çünki o, həm gözəl həkim, eyni zamanda, böyük dövlət xadimi olmuşdur. İkinci Dünya müharibəsində onu Bakıdan Dağıstana ezam etmişlər. Bir neçə il Dağıstanın rəhbəri vəzifəsində işləmişdir və dağıstanlıları sürgündən xilas etmişdir. Çünki o vaxt başqa Qafqaz xalqları ilə bərabər, dağıstanlıları da Qazaxıstana sürgün etmək istəyirdilər, sovet hökumətinin belə planları var idi. Məhz Əziz Əliyevin qətiyyətli mövqeyinə görə bu, baş verməmişdi. Dağıstanlılar bunu yaxşı bilirlər, yaxşı xatırlayırlar və təsadüfi deyil ki, Mahaçqalada dağıstanlıların təşəbbüsü ilə Əziz Əliyevin abidəsi ucaldılmışdır.**

Zeynalabdin Tağıyev Qurani-Kərimi Azərbaycan dilinə tərcümə etdirmiş və eyni zamanda, bu sahədə də təşəbbüskar olmuşdur. İlk dəfə olaraq Qurani-Kərim Azərbaycan dilinə tərcümə edilmişdir. Onun təşəbbüsü və maliyyə vəsaiti hesabına Azərbaycanda bir çox dini abidə inşa edilmiş və təmir olunmuşdur. Onun təhsillə bağlı təşəbbüsləri təkcə Bakı ilə məhdudlaşmırdı. Eyni zamanda, Naxçıvanda, Gəncədə, Şamaxıda, Gürcüstanda azərbaycanlıların yaşadıqları bölgələrdə onun pulu hesabına məktəblər açılmışdır.

**Yəni, onun haqqında çox danışmaq olar. O, böyük şəxsiyyət idi, xalqa bağlı olan, xalqı qəlbən sevən, xalqın gələcəyini düşünən bir insan idi. Onu da bildirməliyəm ki, XIX əsrdə xeyriyyəçilik ənənələrini məhz Zeynalabdin Tağıyev qoymuşdur. Bu ənənələr sovet dövründə təbii ki, davam etmədi. Onu da bildirməliyəm ki, Azərbaycan Xalq Cümhuriyyəti süqut edəndən sonra sovet hakimiyyəti onu bütün imkanlardan məhrum etmişdir, bütün onun əmlakları əlindən alınmışdı, tək bir bağ qalmışdı, orada da o, ömrünün sonuna qədər yaşamışdır. O, uzun ömür yaşadı, dolğun ömür yaşadı. Ancaq əfsuslar olsun ki, ömrünün sonunda bu cür ədalətsizliklə üz-üzə qaldı və həyatdan çox narahat getdi.**

Bu gün isə müstəqil Azərbaycanda xeyriyyəçilik ənənələri, onun qoyduğu xeyriyyəçilik ənənələri davam edir, geniş vüsət almışdır. Bildirməliyəm ki, bu sahədə ən böyük xeyriyyəçi nəinki Azərbaycanda, Cənubi Qafqazda Heydər Əliyev Fondudur. Heydər Əliyev Fondu 20 ilə yaxındır ki, yaradılmışdır və bütün bu illər ərzində Fondun əsas məqsədi, vəzifəsi insanlara kömək göstərmək, Azərbaycan mədəniyyətini dünyada təbliğ etmək, təhsil, səhiyyə, mədəniyyət, incəsənət, elm sahələrinə töhfə verməkdir. Azərbaycanın multikultural dövlət kimi, müasir dövlət kimi dünyada tanıdılmasında da Heydər Əliyev Fondunun müstəsna xidmətləri vardır. Məhz Fondun fəaliyyəti nəticəsində Azərbaycan daha çox tanınır və məhz bu amil bizə İkinci Qarabağ müharibəsi dövründə kömək göstərdi. Çünki Azərbaycan xalqı yaxşı bilir ki, o vaxt erməni lobbisi və onun havadarları Azərbaycan haqqında olmazın yalanlar uydurub media məkanına atmışlar. Ancaq uzun illər ərzində Heydər Əliyev Fondunun müxtəlif ölkələrdə fəaliyyəti və Azərbaycanın müasir, mütərəqqi dövlət kimi tanıdılması bu təbliğatı alt-üst etmişdir. Bu gün Heydər Əliyev Fondu qarşısında yeni vəzifələr dayanır. Ənənəvi fəaliyyətlə yanaşı, bu gün Fond azad edilmiş torpaqlarda geniş fəaliyyətə başlamışdır. Fondun təşəbbüsü ilə azad edilmiş torpaqlarda hazırda dini abidələrimizin əsaslı təmiri, bərpa edilməsi və inşası prosesinə start verilib. Şuşa şəhərində Yuxarı Gövhərağa, Aşağı Gövhərağa, Saatlı məscidləri, Ağdam şəhər məscidi Heydər Əliyev Fondu tərəfindən əsaslı bərpa edilir, Zəngilan şəhər məscidi də həmçinin. Eyni zamanda, Daşaltıda, Hadrutda və Şuşa şəhərində yeni məscidlərin tikintisi də məhz Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilir. Təkcə sadaladığım dini abidələrimizin sayı 8-ə bərabərdir və əminəm ki, Fond digər layihələrdə də fəal iştirak edəcək. Bildiyiniz kimi, məcburi köçkünlər üçün yeni evlərin yaradılması da Heydər Əliyev Fondunun təşəbbüsü ilə geniş vüsət almışdır və mənim iştirakımla Qobu qəsəbəsində bir neçə böyük, çoxmərtəbəli evlərin inşası təmin edilmişdir.

Yəni, bu ənənələr var, davam edir, cəmiyyətdə çox yüksək qiymətləndirilir. Müharibədən sonra mənim təşəbbüsümlə Qarabağ Dirçəliş Fondu, "YAŞAT" Fondu yaradılmışdır. Azərbaycan vətəndaşları, eyni zamanda, şirkətlər könüllü olaraq həm Qarabağ Dirçəliş Fonduna, həm "YAŞAT" Fonduna vəsait təqdim edirlər və bu vəsait hesabına bu gün yüzlərlə qazi həm Azərbaycanda, həm xüsusilə xaricdə müalicə alır, həyata qayıdır, öz sağlamlığını bərpa edir. Bu, bir daha onu göstərir ki, xeyriyyəçilik hər zaman Azərbaycan xalqının ayrılmaz əlaməti olubdur. Sadəcə olaraq, buna şərait yaradılmalı idi, dövlət tərəfindən bu siyasət dəstəklənməli idi və bu gün biz bunu görürük.

**Mən Zeynalabdin Tağıyevin şəxsiyyətinə həmişə böyük hörmətlə yanaşmışam. Hələ 2000-ci illərin əvvəllərində, - mən hələ Prezident deyildim, - onun qəbrinin yerləşdiyi Pirhəsən ziyarətgahı mənim təşəbbüsümlə abadlaşdırıldı və qəbrin ətrafında olan ərazi yeni görkəm aldı. Prezident seçiləndən sonra dərhal mənim təşəbbüsümlə onun evi, hazırda Tarix Muzeyinin binası əsaslı təmir edildi, həm onun yaşadığı evin bir hissəsi muzey kimi qaldı, eyni zamanda, Tarix Muzeyində bizim tariximizin müxtəlif dövrlərini əhatə edən eksponatlar nümayiş etdirilir.**

Bu gün mən çox şadam ki, Zeynalabdin Tağıyevin abidəsi Bakıda ucaldılıb. O, buna layiq idi. Azərbaycan xalqı qarşısında, tarix qarşısında xidməti olan hər bir insanı Azərbaycan xalqı öz qəlbində yaşadır.

**Bir daha əziz xalqımı bu münasibətlə ürəkdən təbrik etmək istəyirəm, Azərbaycan xalqına yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.**



# Türkiyənin həmkarlar ittifaqı təşkilatı şəhid ailələrinə maddi dəstək üçün AHİK-in hesabına vəsait köçürüb

**Yanvarın 14-də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev ölkəmizdə səfərdə olan Türkiyənin "Hak-İş" Konfederasiyasının sədri Mahmut Arslan və qurumun Baş katibi Eda Günərlə görüşüb.**

**"Hak-İş" Konfederasiyası tərəfindən şəhid ailələrinə və qazilərə, həmçinin Şərqi Zəngəzurun və Qarabağın bərpasına xərclənməsi üçün AHİK-in hesabına köçürülən 25 000 ABŞ dolları vəsaitə görə türkiyəli həmkarına təşəkkür edən AHİK sədri Azərbaycanda şəhid ailələrinin, qazilərin, veteranların hərtərəfli dövlət qayğısı ilə əhatə olunduğunu və prosesdə ictimai təşkilatların da fəallığını diqqətə çatdırıb.**

Görüşdə Azərbaycanla Türkiyə arasında mövcud olan qardaşlıq münasibətlərindən, həmçinin iki qurum arasındakı əlaqələrdən,



əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində görülən işlərdən və gələcək perspektivlərdən danışılıb.

AHİK sədri bildirib ki, ölkələrimiz arasındakı münasibətlər qardaşlıq prinsipləri əsasında bütün sahələrdə möhkəm təməllər üzərində qurulub, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamları xalqlarımızın milli-mənəvi dəyərlər müstəvisində birliyinin təminatçısıdır.

**Onun sözlərinə görə, bu gün Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın həyata keçirdikləri məqsədyönlü siyasət sayəsində ölkələrimiz arasındakı münasibətlər daha yüksək səviyyəyə çatmaqda, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçməkdədir.**

Şuşa Bəyannaməsini tarixi hadisə adlandıran S.Möhbalıyev qeyd edib ki, Bəyannamə ölkələrimiz arasındakı münasibətlərin bütün müstəvilərdə, o cümlədən siyasi, iqtisadi, ideoloji, humanitar sahələrdə davamlı inkişafını təmin edir, eyni zamanda müttəfiqliyin geostrateji əhəmiyyətini artırır.

**İşğal olunmuş Azərbaycan torpaqlarının 2020-ci ildə əks-hücum əməliyyatı ilə erməni qəsbkarlarından azad edilməsi zamanı Türkiyə dövlətinin və onun prezidentinin Azərbaycana göstərdiyi mənəvi və diplomatik dəstəyi dəyərləndirən S.Möhbalıyev vurğulayıb ki, bu, sözün hər bir mənasında, təmənnasız qardaşlığın nümunəsi idi.**

Səmimi qəbula görə təşəkkür edən **"Hak-İş" Konfederasiyasının sədri Mahmut Arslan** Vətən müharibəsində Azərbaycanın qazandığı qələbəni tarixi hadisə adlandırıb və bu münasibətlə azərbaycanlı həmkarlarını təbrik edib. Onun sözlərinə görə, Azərbaycan haqq-ədalət uğrunda mübarizə apardı, bütün dünyaya öz gücünü göstərdi. M.Arslan deyib ki, Şərqi Zəngəzurun və Qarabağın işğaldan azad olunması hər birimizin arzusu idi və bizim bu arzumuz reallaşdı: "Biz də, Türkiyənin ictimai təşkilatı olaraq, qardaş ölkənin ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən oğullarının ailələrinə, qazilərə dəstək olmağa çalışırıq. Göstərdiyimiz bu maddi yardım, təbii ki, simvolik xarakter daşıyır. Biz bununla demək istəyirik ki, hər zaman azərbaycanlı qardaşlarımızın yanındayıq və bunu özümüzə borc bilirik".

**Görüşdə həmçinin maraq doğuran digər məsələlər müzakirə olunub. Sonda qarşılıqlı hədiyyələr təqdim olunub, xatirə şəkli çəkdirilib.**

***AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi***

# Səttar Möhbalıyev:

## "Ölkəmiz 2021-ci ili böyük nailiyyətlərlə başa vurub"



**"Dövlətimizin başçısı İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində Azərbaycanın son 11 ayda qazandığı iqtisadi uğurlardan bəhs edib. Görünən odur ki, dünya iqtisadiyyatında hansı formada və səviyyədə böhran baş verməsindən asılı olmayaraq, Azərbaycan iqtisadiyyatı bütün sınaqlara hazırdır və sürətlə inkişaf edir. Bunun bariz nümunəsini biz hələ də tam aradan qalxmayan pandemiya dövründə gördük. Qısa müddətdə bütün dünyanı sosial-iqtisadi böhran bürüdü. Amma görülmüş genişmiqyaslı işlər, sistemli və ardıcıl tədbirlər sayəsində ölkə iqtisadiyyatı duruş gətirə bildi. Son 11 ayın yekunlarından da aydın görünür ki, bu iqtisadi artım davam edir. Qeyri-neft sektorunda da bu hal müşahidə olunur. Sənaye istehsalında, valyuta ehtiyatlarında ciddi artım var, ixrac imkanları da artır. Bütün bunlar Azərbaycanın iqtisadi qüdrətini göstərir".**

**AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev deyib.**

Onun sözlərinə görə, aqrar islahatlar nəticəsində ölkəmizin kənd təsərrüfatı da sürətlə inkişaf edir: "Daxili istehsal dəfələrlə artıb, üzümçülük, pambıqçılıq genişlənir. Fermerlər üçün əlverişli şərait yaradılır. Ərzaq məhsullarının böyük hissəsi ölkəmizdə istehsal olunur. Azərbaycan Prezidentinin səsləndirdiyi rəqəmlər də bunu deməyə əsas verir. İşğaldan azad edilmiş ərazilərimizdə də kənd təsərrüfatının inkişafı istiqamətində genişmiqyaslı iş aparılır. İnanırıq ki, həmin ərazilərdə aqrar sahədə görülən işlər ölkəmizin iqtisadi inkişafında, ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayacaq".

"Dövlətimizin başçısı müsahibəsində Şərqi Zəngəzurda və Qarabağda aparılan abadlıq-quruculuq işlərindən də danışıb. Həmin ərazilərdə genişmiqyaslı proqram icra edilir. Sıfırdan yeni şəhər və kəndlər salınır, yüzlərlə məktəb, xəstəxana, idman kompleksi, mədəniyyət ocağının inşası nəzərdə tutulub, hava limanları tikilir, 100 kilometrlərlə dəmir yolu, minlərlə kilometr avtomobil yolu çəkilir, habelə digər irihəcmli layihələr reallaşdırılır. Qısa müddətdə bu istiqamətdə xeyli işlər görülüb. Bütün bunlar yalnız Azərbaycanın maliyyə resursları hesabına, heç bir kə-



nar dəstək olmadan həyata keçirilir. Aparılan işlərin sürəti də göstərir ki, yaxın zamanlarda bu proses yekunlaşacaq, sakinlər öz ata-baba yurduna qayıdaraq orada əbədi xoşbəxt yaşayacaqlar. Bu istiqamətdə dövlətimiz əlindən gələn hər şeyi edir və buna hamımız şahidik", - deyə Milli Məclisin deputatı bildirib.

**"İşğal altında olan torpaqlarımız azad edilərkən Silahlı Qüvvələrimiz Ermənistan ordusunu məhv etdi. Ordumuzun gücünə bütün dünya şahid oldu, peşəkarcasına, böyük Vətən sevgisi ilə döyüşürdülər. Onların bir amalı var idi: işğal altındakı torpaqları azad etmək. Ordumuz bunu rəşadətlə, böyük qəhrəmanlıq göstərərək yerinə yetirdi. Bu gün dünyanın bir sıra aparıcı hərbi araşdırma mərkəzlərində, həmçinin ali hərbi məktəblərdə Ordumuzun İkinci Qarabağ müharibəsində sərgilədiyi döyüş taktikası maraqla öyrənilir, əsgərlərimizin döyüş ruhu təqdir olunur, bu barədə hərbi ekspertlər məqalələr dərc etdirib fikirlərini bildirirlər. Həqiqətən də, Ordumuzun qəhrəmanlığı bütün dünyaya səs saldı, tarixi ədaləti, beynəlxalq hüququn pozulmuş prinsiplərini bərpa etdi. Separatizim layiq olduğu cəzanı aldı. Bütün bunlar Azərbaycan Ordusunun gücünü və qüdrətini göstərir. Bu gün Ermənistanda hamıda gülüş doğura biləcək "revanşist" fikirlər də səslənir. Amma anlamırlar ki, qarşılarında bir müddət öncə onların ordularını məhv etmiş qalib və yenilməz Azərbaycan əsgəri var. Vətən müharibəsindən sonra Ermənistan tərəfindən törədilən bütün hərbi təxribatlara layiqli cavablar verilib. Müzəffər Ali Baş Komandan İlham Əliyev də müsahibəsində Ermənistanda olan revaşist düşüncəli insanlara tutarlı mesaj göndərdi. Artıq onları hansı aqibət gözləyir hamıya məlumdur. Dövlətimizin başçısının "Bizim gördüyümüz tədbirlər nəticəsində Azərbaycan Silahlı Qüvvələri İkinci Qarabağ müharibəsi dövründə nümayiş etdirildiyindən daha güclü olacaq" fikri, məncə, onlara bəs edər", - deyən AHİK sədri fikrini tamamlayıb.**

# Dəyərli kadrların dəyərləndirilməsi

## *gənc liderlərdə də gələcəklərinə inam yaradır*



**Dövlət İdarələri və İctimai Xidmət İşçiləri (DİİXİ) Həmkarlar İttifaqı Respublika Komitəsi uğurlarının başlıca səbəbini kadrlarla aparılan işin keyfiyyətində görür. Ona görə də hər bir həmkarlar ittifaqı lideri, fəalı ilə daimi olaraq əlaqə saxlanılır, onların müasir dövrün, daha konkret desək, günün tələblərinə cavab verəcək səviyyədə fəaliyyət göstərməsi üçün daim təşkilati, maarifləndirici tədbirlər həyata keçirir. Fəallara, gənc kadrlara potensial peşəkar həmkarlar ittifaqı işçisi kimi baxılır. Respublika Komitəsinin iş metodologiyasında iki prinsip başlıca meyar götürülür: Tələb və qayğı. Tələblərə cavab verə bilməyən və ya qayğıdan lazımınca bəhrələnmək gücündə olmayan kadrlar, təbii ki, həmkarları ilə yolunu ayırmalı olur. Amma böyük əksəriyyət sahə Hİ-də üzərinə götürdüyü məsuliyyəti əmək fəaliyyətinin sonuna qədər çiyinlərində daşımağı bacarır. Öz peşəkarlığı, əzmkarlığı ilə kollektiv, şəhər, rayon miqyasında nüfuz sahibi olur. Belələrinin əməyi Respublika Komitəsi tərəfindən yüksək qiymətləndirilir. Onların əməyinə verilən qiymət həmkarlar ittifaqı sıralarında yeni fəaliyyətə başlayan gənclərdə öz gələcəklərinə inam yaradır.**

Bir neçə gün əvvəl DİİXİ Hİ Respublika Komitəsinin və Yasamal Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə 80 illik yubileyi qeyd olunmuş Sevda Hüseynli də həmkarlar ittifaqı hərəkatında öz sözünü demiş, ittifaq üzvlərinin məhəbbətini qazanmış belə nüfuzlu kadrlardandır. Yubiley tədbirində çıxış edən **Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov** Sevda xanımın, həmkarlar ittifaqı lideri olaraq, rayonun ictimai, iqtisadi, sosial həyatına verdiyi töhfələrdən danışdı. Bildirdi ki, o, həmkarlar ittifaqını dövlət qulluqçularının ərk ünvanına çevirməyi bacarmışdı. İcra hakimiyyətinin rayon əhalisi arasında sosial yükünü xeyli azaltmışdı.

**Elşad müəllim öz rayonları timsalında AHİK sədri, millət vəkili Səttar Möhbalıyev başda olmaqla, həmkarlar ittifaqlarının kadr siyasətini yüksək qiymətləndirdi. Dedi ki, Sevda xanım artıq yaşı ilə əlaqədar olaraq bir neçə müddətdir ki, sahə Hİ Rayon Komitəsinin sədri vəzifəsindən istefa verib. Yenə də öz dəyərli məsləhətləri, zəngin təcrübəsi ilə komitənin yanındadır. Rayon komitəsinin yeni sədri Fizzə xanım Mirzəyeva da Sevda xanımın ənənələrini ləyaqətlə davam etdirir. İttifaq üzvləri arasında sevilib, dəyərləndirilir. Mən Səttar Möhbalıyevə təşəkkürümü bildirirəm ki, Fizzə xanımın şəhid qardaşımızın həyat yoldaşı olduğunu və peşəkarlığını nəzərə alıb onun sədr vəzifəsinə namizədliyini şəxsən dəstəklədi.**



Tədbirdə DİİXİ Respublika Komitəsinin sədr müavini **Əbülfəz Mehtiyev,** Rayon İcra Hakimiyyəti başçısının müavinləri **Təravət Muradova**, **Xaliq Möhbalıyev,** sahə Hİ Yasamal Rayon Komitəsinin sədri **Fizzə Mirzəyeva** çıxış edərək S.Hüseynli haqqında ürək sözlərini tədbir iştirakçıları ilə bölüşdülər.

Xoş sözlərə və diqqətə görə Sevda xanım minnətdarlığını bildirdi.

**Sonda yubilyara Respublika Komitəsinin Fəxri Fərmanı və pul mükafatı, Rayon İcra Hakimiyyətinin hədiyyələri təqdim olundu.**



# Sülhməramlılar, yoxsa ermənilərin havadarları?

**Prezident İlham Əliyev yanvarın 12-də yerli televiziya kanallarına müsahibə verərək bir sıra mühüm məqamlara toxundu. Ölkə başçısının toxunduğu mühüm məsələlərdən biri də Qarabağın bəzi ərazilərində yerləşən Rusiya sülhməramlıları ilə bağlı verdiyi mesaj idi. Prezident sülhməramlıların fəaliyyətini ümumilikdə müsbət qiymətləndirsə də, eyni zamanda Azərbaycanı narahat edən məsələləri də diqqətə çatdırdı. "Həmin ərazilərə gələn maşınların 91 faizi, oradan çıxan maşınların isə 46 faizi yoxlanılmır. Bu da onu göstərir ki, Rusiya sülhməramlıları çalışırlar ki, giriş sərbəst olsun, çıxışda isə müəyyən problemlər yaransın. Yəni istəyirlər ki, insanlar oradan getməsinlər" deyən Prezident bildirdi ki, ərazi tamamilə Azərbaycanın nəzarətindədir, heç kim qeyri-qanuni fəaliyyətlə məşğul olmağa çalışmasın, çünki Bakının hər şeydən xəbəri var.**

**Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Sahib Alıyev və "Qafqaz: əməkdaşlıq və inteqrasiya" klubunun sədri, politoloq Anar Əliyev bu mühüm məsələni şərh etdilər.**

Sahib müəllim bildirdi ki, Rusiyanın Qarabağdakı hərbi kontingentinin fəaliyyəti rəsmi Bakı ilə Moskvanın əlaqələrinə əhəmiyyətli dərəcədə təsir göstərən və göstərə biləcək komponentlərdən biridir: "Əgər doğrudan da Rusiya Azərbaycanla əlaqələrinin dostluğa, qarşılıqlı faydaya, mehriban qonşuluğa dayanmasını istəyirsə, o zaman sülhməramlı qüvvələr öz üzərinə götürdüyü missiyanı ədalətlə, eyni zamanda 10 noyabr bəyanatına uyğun olaraq yerinə yetirməlidir. Həmin bəyanatda bildirilirdi ki, Ermənistan ordusunun Qarabağda qalmış tör-töküntüləri çıxarılmalı, separatçı terrorçu ünsürlərin silahlı qruplaşmaları ləğv edilməlidir. Ancaq, təəssüf ki, bu yöndə hələlik hər hansı bir addımın atıldığını görmürük. Cənab Prezidentin bizim yerli jurnalistlərə verdiyi müsahibədə vurğuladığı kimi, sülhməramlıların Qarabağdan getmək istəyən ermənilərin süni şəkildə qarşısının alınmasına çalışdığını görürük. Təbii ki, Azərbaycan qanunlarını pozan bu cür addımlar Rusiyanın oradakı hərbi kontingenti haqqında heç də müsbət rəy formalaşdırmır, eyni zamanda həmin hərbi kontingentin Azərbaycanda gələcəkdə 5 il başa çatdıqdan sonra qalıb-qalmayacağını da sual altına qoyur. Bir məsələni də vurğulamalıyam ki, Qarabağda olan sülhməramlılar bilməlidir ki, Abxaziyada, Güney Osetiyada, Dnestryanıda oynadığı rolu burada oynaya bilməyəcək. Elə Prezident də müsahibəsində açıq şəkildə vurğuladı ki, Azərbaycan bütün torpaqları üzərində suverenliyini təmin edəcək, Ermənistan tərəfindən onun təhlükəsizliyini təhdid edən hər hansı bir addım atıldığı təqdirdə bu addım harada atıldığına diqqət yetirilmədən zərərsizləşdiriləcək. Düşünürəm ki, onlar artıq bu iradlardan dərs çıxaracaqlar".

Politoloq Anar Əliyev də rus sülhməramlı qüvvələrin öz missiyalarına uyğun addımlar atmadığı fikrində olduğunu bildirdi: "Sülhməramlıların bir ildən artıq keçən müddət ərzindəki fəaliyyəti Qarabağda tərəflər arasında qismən nisbi sakitlik yaratsa da, ancaq demək olmaz ki, onlar tam 10 noyabr bəyanatında irəli sürülən maddələrə riayət ediblər. Separatçılarla hərbi təlimlərin keçirilməsi, üçüncü dövlət vətəndaşlarının Azərbaycanın icazəsi olmadan həmin ərazilərə daxil olması, ermənilər üçün hansısa humanitar addımların atılması, azyaşlı erməni uşaqlarının əlinə silah verilərək şəkillərinin çəkilməsi, onların paylaşılması - bunlar onu göstərir ki, Rusiya sülhməramlı qüvvələri heç də bütün hallarda öz missiyalarına uyğun addımlar atmırlar. Azərbaycan Prezidenti cənab İlham Əliyev yerli televiziya kanallarına verdiyi müsahibədə də açıq şəkildə qeyd etdi ki, Rusiya sülhməramlı qüvvələrinin fəaliyyətində müəyyən qüsurlar özünü göstərir.

**Anar Əliyev əmin olduğunu bildirdi ki, Rusiya sülhməramlı qüvvələri Prezidentin müsahibədə dediyi fikirlərə bundan sonra diqqətlə yanaşacaqdır və sonrakı addımlarında bunlara əməl edəcəklər. Amma bunun üçün, mən bir daha təkrar edirəm, ən vacib məqam 10 noyabr bəyanatının alt müqaviləsi olaraq sülhməramlı qüvvələrin fəaliyyət istiqamətlərini, fəaliyyət məqsədlərini və fəaliyyət sahələrini müəyyən edəcək müqavilənin imzalanması olmalıdır. Hesab edirəm ki, Azərbaycan tərəfindən bu istiqamətdə atılan addımlar daha da sürətlənəcək və Rusiya tərəfinin təkidlərinə baxmayaraq, bu müqavilə, bu razılaşma imzalanacaqdır".**

Aliyə SƏMƏDOVA

# Növbəti il üçün qarşıda duran vəzifələr müzakirə olunub



**Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında ötən ilin yekunları və növbəti il qarşıda duran vəzifələr müzakirə olunub.**

Yığıncaqda çıxış edən Şuranın sədri Anar İbrahimov qurumun fəaliyyətini 2021-ci il üçün tərtib olunmuş İş planına və Tədbirlər proqramına uyğun davam etdirdiyini qeyd edib. Bildirib ki, ötən il yanvarın 18-də Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası Məclisinin birinci iclası keçirilib, şuranın və tabe təşkilatların 2021-ci ilə dair illik statistik hesabatları tərtib və təsdiq edilib, daxil olan ərizə və şikayətlərə vaxtında və qanunun tələbləri əsasında baxılıb, bir çox təşkilatlarda müddəti başa çatmış kollektiv müqavilələr yenilənib, ittifaq üzvlərinin sağlamlığının qayğısına qalınıb, onlar kurort və sanatoriya yollayışları ilə təmin olunublar. Şura hazırda 763 ilk həmkarlar ittifaqı təşkilatını, 10 Birləşmiş Həmkarlar İttifaqı Komitəsini, 6 muxtar respublika komitəsini özündə birləşdirir. İttifaq üzvlərinin sayı isə 46 min 134 nəfərdir.

Diqqətə çatdırılıb ki, bu gün Şuranın sıralarında olan gənclər hərtərəfli diqqət və qayğı ilə əhatə edilib. Ötən il 3 fəal ittifaq üzvü Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təsis etdiyi "İlin peşəkar gənci" fəxri adına layiq görülüb. Onlara Konfederasiyanın Fəxri Diplomu, döş nişanı və vəsiqəsi təqdim edilib. Şuranın xidmətində olan "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin Təhlükəsizlik İdarəsi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının "Sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması üzrə ilin ən yaxşı müəssisəsi (təşkilatı)" devizi ilə keçirdiyi Respublika müsabiqəsinin qalibi olub. İdarənin kollektivinə Konfederasiyanın Fəxri Diplomu və qiymətli hədiyyəsi, Şura tərəfindən isə bir qrup əməkdaşa Fəxri Fərman və pul mükafatı verilib.

Çıxışda bildirilib ki, Şura "İlin peşəkar gənci" adı uğrunda növbəti müsabiqədə də naxçıvanlı gənclərin qaliblər sırasında olması məqsədilə ciddi işlər aparır. Bu məqsədlə ötən il dekabr ayının 27-də Şura nəzdində müsabiqə komissiyası yaradılıb.

**Yığıncaq məruzə ətrafında çıxışlarla yekunlaşıb.**

# AHİK 20 Yanvar şəhidlərinin ailələrinə maliyyə dəstəyi göstərib




**Azərbaycanda mübariz oğul və qızlarımızın şücaəti hər zaman yüksək qiymətləndirilir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərilir, əziz xatirələri uca tutulur.**

İstər Birinci Qarabağ müharibəsi, istər 44 günlük Vətən müharibəsi, istərsə də 20 Yanvar şəhidlərinin ailələri və qaziləri hərtərəfli dövlət dəstəyi ilə əhatə olunurlar.

Azərbaycan həmkarlar ittifaqları da şəhid ailələrinə, qazilərə, ümumiyyətlə, müharibə iştirakçılarına daim dəstək olur, onların qayğıları ilə maraqlanır, lazımi köməklikləri göstərir.

Bu ənənənin davamı olaraq bu il də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) İcraiyyə Komitəsi ölkəmizin müstəqilliyi uğrunda 1990-cı ilin 20 yanvarında şəhid olmuş qəhrəmanlarımızın ailələrinə maliyyə dəstəyi göstərmək üçün müvafiq qərar qəbul edib. Belə ki, 99 şəhid ailəsinin hər biri üçün 200 manat (ümumilikdə 19800) məbləğində maliyyə yardımı göstərilib.

**Eyni zamanda AHİK-in üzv təşkilatları tərəfindən şəhid ailələrinə yardım göstərilməsi, pulsuz yollayışlarla təmin olunması, onlarla görüşlərin və digər tədbirlərin keçirilməsi nəzərdə tutulub.**

**AHİK-in Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi**

# Ağdam şəhəri ikinci doğum tarixini yaşayacaq

**İşğala qədər 42 min insanın yaşadığı, təxminən 50 küçədən ibarət olan Ağdam şəhərində daş-daş üstündə qalmamışdı. Bu cənnətməkan şəhərimiz daş-beton xarabalığına çevrilmiş, ermənilər burada misli görünməmiş vandalizm aktı törətmiş, məzarları belə dağıtmışlar. Ölkə başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi, Silahlı Qüvvələrimizin qəhrəmanlığı sayəsində Ağdam, xarabalıqlar şəklində olsa da, əsl sahiblərinə qaytarıldı. Ağdam şəhəri ikinci doğum tarixini yaşamağa hazırlanır. Bu hazırlıq işləri necə gedir?**



**Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəsi Emin Hüseynov bildirdi ki, hələlik Ağdam dağıntılardan təmizlənir, yenidən tikilir, qurulur. İnanırıq ki, bu gedişlə ən qısa vaxtda ağdamlılar öz doğma yurdlarına qayıdacaqlar. Ağdamın mərkəzi hissəsində vaxtilə şəhərin məşhur təhsil ocağı olmuş Ağdam 1 saylı tam orta məktəbin təməli atılmışdır. Həmçinin qəbul olunmuş layihə üzrə şəhərin mərkəzində yaşayış binalarının təməli qoyulmaqdadır.**

E.Hüseynov onu da qeyd etdi ki, Ağdamda indiyədək elektrik enerjisinin bərpası problemi olmuşdur. Yüksəkgərginlikli elektrik xətlərinin keçdiyi ərazilərdə minalanmış sahələr çoxdur deyə, "Azərenerji" mütəxəssisləri bu mənada çətinliklər yaşayıblar. Lakin bütün bu çətinliklər həll olmuş, artıq arxada qalmışdır. Şəhər elektrik enerjisi ilə tam təmin olunmuşdur. İkinci yarımstansiya da tezliklə istifadəyə veriləcək.

Prezidentin Rəsmi Nümayəndəsi bildirdi ki, Ağdam, o cümlədən kənd və qəsəbələrin hamısı yenidən tikilməlidir. Təsəvvür edin, biri var hazır boş sahədə hansısa tikintini həyata keçirirsən, biri də var dağıdılmış ərazini təmizləyib üzərində yeni tikintiyə başlayırsan. Ərazilərin minalanmış olması da daha çox çətinliklər yaradır. Bütün bunlara baxmayaraq, biz cənab Prezidentin qarşıya qoyduğu vəzifələri daha tez həyata keçirmək üçün gecə-gündüz çalışırıq. Lakin biz təkcə dövlətin gücündən və imkanından deyil, sahibkarların, iş adamlarının da imkanlarından faydalanmağı qarşıya məqsəd qoymuşuq. Təbii ki, elə sahələr var mürəkkəb texnoloji işlər görülməlidir, hansı ki, dövlət şirkətləri, xarici şirkətlər bu işləri görür. Qalan işlərin görülməsi isə iş adamlarının-investorların üzərinə düşür. Bəli, meydan açıqdır. Sadəcə, Ağdamda iş görmək istəyən iş adamlarının xoş niyyəti və bacarığı, təcrübəsi lazımdır. Bəyan etmişik ki, gəlin, layihənizi-proqramınızı verin, baxaq, dəyərləndirək. Gəlin, iş yeri açın, pulunuzu qazanın, dövlətimizə dəstək verin.

**Onu da əlavə edim ki, bizə vaxtilə Ağdamdakı daş karxanası, eləcə də Şahbulaq qalasındakı iaşə obyekti və digər obyektlərlə bağlı müraciətlər olub, bəziləri hətta özəlləşdirmək istədiklərini bildirib. Lakin ölkə rəhbərliyinin tapşırığı belədir ki, heç bir obyekt özəlləşdirilə bilməz. Amma vətəndaş seçim edərək obyektin idarəçiliyini öz üzərinə götürə bilər. Əsas məqsəd odur ki, yeni obyektlərdə iş yerləri açılsın, işsizlər işlə təmin olunsun, dövlətin büdcəsinə də vəsait daxil olsun.**

Daha bir yenilik isə ondan ibarətdir ki, vaxtilə Ağdama inzibati ərazi baxımından bitişik olmuş Muradbəyli, Ətyeməzli, Seyidli və digər qəsəbə, kəndlər Ağdam şəhər kompleksinə daxil ediləcək.

Ağdam şəhərinin mərkəzində çoxmərtəbəli, müasir və milli ornamentlərlə bəzədilmiş binalar tikiləcək. İlkin təqdim edilən layihəyə əsasən, bu binaların ətrafında həyətyanı sahəsi olan fərdi yaşayış evləri inşa ediləcək. Əvvəllər bu evlərin sayı 1700 nəzərdə tutulmuşdu. Sonradan təqdim edilən daha bir layihəyə görə fərdi yaşayış evlərinin 3400-4000 sayda olması məqsədəuyğun sayıldı.

E.Hüseynov onu da qeyd etdi ki, ağdamlılar tezliklə öz doğma şəhərinə rahat, xüsusi nəzarətdən keçmədən sərbəst olaraq ziyarətə gələ biləcəklər. Bu da onlara şəhərdə aparılan quruculuq-tikinti işləri ilə bilavasitə tanış olmaq imkanı verəcək.

**Həmsöhbətim Qarağacı qəbiristanlığı ilə bağlı məsələyə də toxundu. Dedi ki, erməni vəhşiləri Ağdam işğal ediləndən sonra qızıl diş axtarışı məqsədilə bu məzarlığı yerlə-yeksan etmişdi. Mərmər başdaşlarını Ermənistana daşımışdılar, məzarlığın yerində taxıl əkmişdilər. İndi təklif var ki, Qarağacı qəbiristanlığında mavzoley tikilsin, orada vaxtilə dəfn edilmiş ağdamlıların adları həkk olunsun ki, gələcək nəsillər, xarici qonaqlar buradakı erməni vəhşiliyinin miqyasını bilsinlər.**

Gülöyşə MƏMMƏDLİ

# 20 YANVAR FACİƏSİ SEPARATİZMƏ QARŞI XALQIN MÜQAVİMƏTİNİ VƏ İRADƏSİNİ QIRMAQ ÜÇÜN HAZIRLANMIŞ TƏXRİBAT İDİ



**Azərbaycan xalqının tarixinə Qanlı Yanvar kimi daxil olmuş 1990-cı il 20 Yanvar faciəsindən 32 il ötür. Sovet Ordusunun həmin il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda törətdiyi kütləvi qırğınlar insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri kimi tarixə düşdü. 20 Yanvar faciəsi niyə baş verdi, niyə məhz Bakıda törədildi?**

**Bu sualın cavabını müxbiriniz millət vəkili Fəzail Ağamalı ilə araşdırdı. Millət vəkili dedi ki, bu faciənin əsası hələ 80-ci illərin əvvəllərində qoyulmuşdu. Qorbaçovun ətrafında olan ermənilərin hazırladıqları Qarabağın Ermənistana birləşdirilməsi planı Kremildə razılaşdırılmışdı da, sadəcə, münasib məqam gözləyirdilər. Bu məqam 1987-ci ilin noyabrında yetişdi. Yəni Heydər Əliyevin Sovet İttifaqı Kommunist Partiyasının Siyasi Bürosu üzvlüyündən istefasından sonra həmin vaxtdan ermənilər Qarabağ ərazisində separatçılıq hərəkatına start verdilər. 1988- ci ilin fevralından açıq müstəviyə keçən bu proses ermənilərin gündən-günə daha çox aqressivləşməsi ilə davam edirdi.**





Ermənistanla birləşməyə hədəflənən şüarlar altında 1988-ci ilin bütün aylarında davamlı, fasiləsiz mitinqlər gedirdi. Çox təəssüf ki, həmin dövrdə Azərbaycanın siyasi rəhbərliyi gedən proseslərə adekvat cavab verə bilmirdi. Baş verən hadisələrə qarşı 1988-ci il fevral ayında indiki Prezident Administrasiyası qarşısında mitinq təşkil olundu. Daha sonra bu mitinq 1988-ci ilin may ayında təkrarlandı və bununla da bitdi. Respublika rəhbərliyi təslimçi mövqe tutmuşdu. Siyasi rəhbərliyə inamını itirən, ondan dəstək gözləməyən xalqımız separatizmə qarşı mübarizəsini öz üzərinə götürdü. Həmin ilin noyabr- dekabr aylarında 23 gün davam edən meydan hərəkatı Azərbaycan xalqının iradəsini ortaya qoydu. Milyonlarla insanın iştirakı ilə davamlı mitinqlər keçirilirdi. Bu mitinqlər Moskva tərəfindən dağıdılsa da, Bakı şəhərində fövqəladə vəziyyət və komendant rejimi tətbiq olunsa da, bu, xalqın iradəsini qıra bilmədi. 1989-cu ildə mitinqlər, tətillər Azərbaycan miqyasında daha da genişləndi və demək olar ki,1989-cu ilin axırlarında Azərbaycanda xalq hərəkatı rəhbərlik tərəfindən idarəolunmaz bir səviyyəyə qalxdı. Hakimiyyət çıxılmaz vəziyyətdə idi. 1989-cu ilin yanvar ayında Azərbaycan Xalq Cəbhəsi (AXC) və onun İdarə Heyəti böhran dövrünü keçirirdi. Öz aralarında qruplara ayrılmış AXC geniş miqyas alan xalq hərəkatını idarə etmək iqtidarında deyildi. 1990-cı il yanvarın 12-də Azadlıq meydanında çox geniş miqyasda mitinq keçirildi. Orada artıq Azərbaycanın sovet ittifaqının tərkibindən çıxması kimi şüarlar səsləndirilirdi. Erməni separatizminə son qoyulmadığı üçün Kremlə qarşı ciddi tənqidlər, ittihamlar səsləndirilirdi.

**1990-cı ilin 20 Yanvarında axıdılan qanlar, göstərilən böyük qəhrəmanlıq və igidlik Azərbaycan xalqının Milli Azadlıq Hərəkatının genişlənməsinə böyük təkan verdi**

Yanvar ayının 13-də isə SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin ssenarisi əsasında Bakının ermənilər daha sıx yaşadığı yerlərində onlara qarşı hücumlar təşkil olundu. Orada yaşayan ermənilərin bəziləri döyüldü, bəziləri küçələrə atıldı, bir neçəsi hətta öldürüldü. Beləliklə, elə bir vəziyyət yaradıldı ki, onların dili ilə desək, guya Azərbaycanda yaşayan ermənilərə qarşı böyük hücumlar baş verdi. Bu ssenarini reallaşdıran isə Dövlət Təhlükəsizlik Komitəsinin argentura şəbəkəsi idi. Qeyd edim ki, eyni ssenarini Sumqayıt hadisələri zamanı da tətbiq etdilər. Sumqayıt hadisələri də ittifaqın xüsusi xidmət orqanlarının həmin dövrdə təşkil etdiyi ssenarinin tərkib hissəsi idi. Bunu sübut edən kifayət qədər faktlar var. Bu faktlarla sübut olundu ki, əslində bütün məqsəd Azərbaycanda separatizmə qarşı xalqın müqavimətini və iradəsini qırmaq üçün hazırlanmış təxribatdır. Xalqımıza daha bir ləkə yaxmaq istəyirdilər ki, guya milli münaqişə zəminində azərbaycanlılar Sumqayıtda yaşayan ermənilərə qarşı təxribatlar törədib, onları qətlə yetirib. Bütün bunların başında, sözsüz ki, ermənilər dayanırdı.

20 Yanvar faciəsi ərəfəsində, yəni yanvarın 13-dən sonra, demək olar ki, Azərbaycan xalq hərəkatına AXC-nin İdarə Heyəti rəhbərlik etmirdi. Bütün yürüşlərə, mitinqlərə, erməni evlərinə hücum edən ayrı-ayrı dəstələrə dövlət təhlükəsizlik xidmətinin agentura şəbəkəsi istiqamət verirdi. Və yanvarın 15-dən sonra belə bir şayiə yayıldı ki, sovet qoşunları Bakıya doğru hərəkət edir. Həmin günlər mən indiki Göygöl rayonuna ermənilərin genişmiqyaslı hücumlarının qarşısının alınmasına kömək üçün getmişdim. Sonra yüngül silahlanmış könüllülərə silah əldə etmək məqsədilə Bakıya qayıtdım. Dəhşətli mənzərənin şahidi oldum. Bakı qaynayırdı, idarəolunmaz vəziyyətdə idi. İğtişaşlar davam edirdi. Mən heçnə əldə edə bilmədən yenidən Göygöl rayonuna qayıtdım, könüllülərlə bərabər iki kəndi azad etdik, üçüncü kəndə hücum əməliyyatı nəzərdə tutduğumuz vaxt - yanvar ayının 20-də bizə xəbər gəldi ki, Bakı şəhərində böyük faciə törədilib. Eyni zamanda ölkənin digər yerlərində də fövqəladə vəziyyət elan olunub, komendant saatı tətbiq edilib. Bu zaman xalq hərəkatını nə ölkənin rəsmi hakimiyyəti, nə də AXC idarə etmək gücündə deyildi. Artıq elə bir vəziyyət yaranmışdı ki, onlar tamamilə hərəkatın gedişindən kənarda qalmışdılar. Və deyildiyi kimi, Bakıya qoşun yeridildi. Xüsusi təyinatlılar, eyni zamanda Müdafiə Nazirliyinin müxtəlif təyinatlı silahlı qüvvələri, daxili qoşunlar və sairə böyük bir qüvvə ilə 60 mindən çox silahlı qüvvə, hərbi texnika ilə bərabər Bakıya daxil oldu. Qarşılarına çıxanları, körpə, qoca demədən güllləbaran edir, tankla maşınların üstündən keçirdilər. Hətta evlərə belə atəş açır, mənzillərdə nə qədər insanın ölümünə səbəb olurdular. Misli görünməmiş cinayət, vəhşilik törədilirdi. Bununla belə, xalq ölümün gözünə dik baxaraq silahsız, əliyalın şəkildə küçələrə axışıb azadlığı uğrunda mübarizəyə qalxdı. Bax, bu qəhrəmanlıq salnaməsini Azərbaycan xalqı bütün dünyaya nümayiş etdirdi. Bu günün mahiyyəti ona görə xüsusilə fərqlənir ki, 1990-cı ilin 20 Yanvarında axıdılan qanlar, göstərilən böyük qəhrəmanlıq və igidlik Azərbaycan xalqının Milli Azadlıq Hərəkatının genişlənməsinə böyük təkan verdi. Bu hadisə Azərbaycanın təkcə milli baxımından deyil, həm də bəşəri baxımından tarixi nailiyyət qazanmasına öz töhfəsini verdi. Başqa sözlə desək, 20 Yanvarda quduzlaşmış Sovet ordusunun qarşısına əliyalın çıxan mərd, igid insanlarımız dünyaya Azərbaycan xalqının istiqlala nə dərəcədə sadiq olduğunu nümayiş etdirməklə bərabər, həm də Sovet imperiyasının çökməsində çox ciddi rol oynadı.

**20 Yanvarı törətməkdə əsas məqsəd Azərbaycan xalqına qarşı qırğın törətməklə digər sovet xalqlarına dərs vermək və bütövlükdə oyanmış olan xalqların milli azadlıq mübarizəsinin qarşısını almaq idi**

Əlbəttə, 20 Yanvarı törətməkdə əsas məqsəd Sovet imperiyasının dağılmasının qarşısını almaq, Azərbaycan xalqına qarşı qırğın törətməklə digər sovet xalqlarına dərs vermək və bütövlükdə oyanmış olan xalqların milli azadlıq mübarizəsinin qarşısını almaq idi. Hədəf Azərbaycan və Azərbaycan xalqı seçilmişdi. Ancaq onlar belə güman edirdilər ki, Azərbaycan xalqını qırmaqla, onu qan içində boğmaqla Azərbaycan xalqının iradəsini qıracaq, onun milli azadlıq mübarizəsinin qarşısını alacaq və eyni zamanda bütövlükdə Sovet imperiyasının çökməsinə imkan verilməyəcəkdir. Lakin bu addımı atan Qorbaçov, xüsusilə onun hərbi sənaye kompleksi və hərbçiləri öz istədiklərinə nail ola bilmədilər. Əksinə, 20 Yanvar qanlı hadisələrindən sonra Sovet imperiyasının daha sürətlə çökməsi prosesi başlandı və ondan iki il sonra Sovet imperiyası tamamilə çökdü. Beləliklə, həm Azərbaycan, həm də Sovet imperiyasının tərkibində olan digər müttəfiq respublikalar öz azadlığına qovuşdular, müstəqilliyini qazandılar. Nəticə etibarı ilə 20 Yanvarda tökülən qanlar, verilən şəhidlər əslində şər imperiyasının çökməsinə kömək edən fenomenal bir hadisə idi.



**20 Yanvarda tökülən qanlar, verilən şəhidlər əslində şər imperiyasının çökməsinə kömək edən fenomenal bir hadisə idi**



**Bu hadisə Azərbaycanın təkcə milli baxımından deyil, həm də bəşəri baxımından tarixi nailiyyət qazanmasına öz töhfəsini verdi**

Əsli TELMANQIZI

# Vətəni sevmək nümunəsi



**Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Cəmilə Səttarova "20 Yanvar" faciəsində həyatını itirmiş sahə işçilərinin ailə üzvləri ilə görüşmüşdür. Görüşdə əvvəlcə 20 Yanvar şəhidlərinin xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir.**

C.Səttarova 20 Yanvar şəhidlərini Azadlıq mücahidləri adlandırmışdır. Sonrakı nəsil Vətəni sevməyi və qorumağı onlardan öyrəndi, - dedi. Məhz onların göstərdiyi qəhrəmanlıqdan dərs alan igidlərimiz müstəqilliyimizi qoruyub saxlaya bildi, torpaqlarımızın bütövlüyünü bərpa etdi. Biz heç vaxt onları unutmayacağıq.

**Sonda şəhid ailə üzvlərinə maddi yardımlar təqdim olundu.**

# "İqtisadi bərpa planlarının formalaşdırılması - yeni çağırışlar qarşısında həmkarlar ittifaqlarının rolu"

## mövzusunda seminar



**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) təşkilatçılığı, Beynəlxalq Əmək Təşkilatının dəstəyi ilə "İqtisadi bərpa planlarının formalaşdırılması - yeni çağırışlar qarşısında həmkarlar ittifaqlarının rolu" mövzusunda seminar keçirilib.**

Seminarda Azərbaycan həmkarlar ittifaqlarının 30-a qədər fəal üzvü və AHİK-in ekspertləri iştirak ediblər.

Tədbirdə AHİK-in Təşkilat işləri və məlumat şöbəsinin müdir müavini Əli Cəfərov giriş sözü ilə çıxış edib. Sonra qurumun mütəxəssisi Tural Süleymanovun mövzu ilə bağlı məruzəsi dinlənilib. O, çıxışında pandemiyanın yaratdığı fəsadlar, xəstəliyə qarşı ölkəmizdə görülən qabaqlayıcı tədbirlər, ölkəmizin bu sınaqdan üzüağ çıxma səbəbləri, dayanıqlı iqtisadi inkişafdan bəhs edib.

**Daha sonra çıxış edənlər - AHİK-in baş mütəxəssisi Arif İbrahimov, mütəxəssisi Qara Ağayev, Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Aparat rəhbəri Şaiq Əhmədov, AMEA-nın İqtisadiyyat İnstitutunun Həmkarlar İttifaqı Komitəsinin sədri Paşa Tanrıverdi, Təhsil İşçiləri Azad Hİ Salyan Rayon Komitəsinin sədri Yaqut Ələsgərova, Yerli Sənaye və Kommunal-Məişət Müəssisələri İşçiləri HİRK-in katibi İsmayıl İsmayılov və digərləri mövzu ilə bağlı fikirlərini bölüşüblər.**

# Faciəli gecə xatırlandı



**AMEA-nın Azad Həmkarlar İttifaqı (AHİ) Rəyasət Heyətinin növbəti iclası keçirilib.**

Tədbiri giriş sözü ilə AHİ-nin sədri, hüquq elmləri doktoru, professor Habil Qurbanov açaraq iclasın gündəliyi barədə iştirakçılara məlumat verib.

O, çoxillik səmərəli fəaliyyəti, eləcə də 70 illik yubileyi münasibətilə Torpaqşünaslıq və Aqrokimya İnstitutunun Mineral gübrələr laboratoriyasının müdiri, həmin institutun Həmkarlar İttifaqı Komitəsinin sədri, aqrar elmlər doktoru Məmməd Məmmədovun AMEA Azad Həmkarlar İttifaqı Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olunduğunu diqqətə çatdırıb.

H.Qurbanov alimin elmi və ictimai fəaliyyətindən, onun aqrar sahədəki xidmətlərindən söz açıb. O, Məmməd Məmmədovun bu yaxınlarda Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində yerləşən Ekologiya və Həyat Fəaliyyətinin Təhlükəsizliyi üzrə Beynəlxalq Elmlər Akademiyasının ekologiya ixtisası üzrə həqiqi üzvü seçildiyini bildirib.

**Alimi 70 illik yubileyi münasibətilə təbrik edən AHİ sədri ona gələcək fəaliyyətində uğurlar arzulayıb və Fəxri Fərmanı Məmməd Məmmədova təqdim edib.**

Yubilyar əməyinə verilən yüksək qiymətə görə AHİ sədri Habil Qurbanova minnətdarlığını bildirib.

Sonra iclasda 20 Yanvar faciəsinin Azərbaycan tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olduğunu qeyd edən professor Habil Qurbanov bildirib ki, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına və Mixail Qorbaçovun qərəzli siyasətinə qarşı küçə və meydanlara çıxan dinc əhaliyə qanlı divan tutulub, xalqımızın azadlıq istəyini boğmağa cəhd ediblər. Yüzlərlə mülki şəxsin öldürülməsinə, yaralanmasına və həbs olunmasına baxmayaraq, xalqımızın azadlıq ruhunu sındıra bilməyiblər.

**AHİ sədri qeyd edib ki, 1990-cı il yanvarın 21-də xalqımızın böyük oğlu, ümummilli lider Heydər Əliyev Moskvada Azərbaycanın daimi nümayəndəliyində keçirdiyi mətbuat konfransında bu vəhşiliyi qətiyyətlə pisləyib, qətliamın başvermə səbəblərini açıqlayıb, təşkilatçıların, günahkarların adlarını cəsarətlə dünyaya bəyan edib. 20 Yanvar faciəsinə dövlət səviyyəsində ilk siyasi-hüquqi qiymət də məhz Ulu Öndər Heydər Əliyev tərəfindən verilib.**

O, hər bir azərbaycanlıda qürur hissi oyadan, 1990-cı il 20 Yanvar tarixində ölkəmizin müstəqilliyi uğrunda şəhid olmuş insanların xatirəsinin heç vaxt unudulmayacağını, xalqımızı daha da birləşdirən bu faciənin gələcək nəsillər tərəfindən hər zaman anılacağını, Qanlı Yanvarın Azərbaycan xalqının mübarizliyini və qəhrəmanlığını təcəssüm etdirdiyini bildirib.

**Azərbaycanda şəhid ailələrinə dövlətimiz tərəfindən daim yüksək diqqət və qayğı göstərildiyini deyən sədr onların sosial təminatının yaxşılaşdırıldığını, dövlət tərəfindən həm maddi, həm də mənəvi dəstək göstərildiyini, 20 Yanvar şəhidlərinin ailələrinə humanitar yardımların edildiyini diqqətə çatdırıb.**

Habil Qurbanov Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, xalqımızın qələbə əzmi və müzəffər ordumuzun döyüş meydanında göstərdiyi rəşadəti sayəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyinin bərpa edildiyini vurğulayıb.

Natiq Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa-quruculuq işlərindən də danışıb.

**Tədbirdə çıxış edən Azad Həmkarlar İttifaqı Rəyasət Heyətinin sədr müavini, kimya elmləri doktoru, professor Raya Nəcəfova və digərləri sovet ordusu tərəfindən bir gecənin içində Azərbaycanın dinc əhalisinə qarşı törədilmiş xüsusi qəddarlıq və görünməmiş vəhşiliklər haqqında ürəkağrısı ilə söz açıblar. Çıxış edənlər həmin gecə elmimizin parlaq nümayəndələrindən sayılan professorlar İbrahim İbrahimov, İsmayıl Mursaqulov, Svetlana Məmmədovanın şəhid olduğunu, digər alimlər İdris Əhmədov və Parlaq Məmmədovanın isə ağır yaralandığını bildiriblər.**

# İKİGÜNLÜK GƏZİNTİ

**Torpaqşünaslıq və Aqrokimya İnstitutunun Həmkarlar İttifaqı Komitəsi İsmayıllı rayonuna ikigünlük gəzinti təşkil edib. Gəzintidə İnstitutun 27 nəfər əməkdaşı iştirak edib. Əməkdaşlar həmçinin "İsmayıllı Resort və Hotel" İstirahət Mərkəzində istirahət ediblər.**



# Şəhidlik zirvəsinin fatehləri

## "Elə sevdiyi bayraqla da evlərinə qayıtdı..."



**Ayaz Azər oğlu Nəzərov 1998-ci il iyunun 16-da Tovuz rayonunun Bozalqanlı kəndində anadan olub. Tovuz Dövlət Sosial İqtisadi Kollecini bitirib. O, 2 il 6 ay idi ki, Azərbaycan Ordusunda Müddətdən Artıq Həqiqi Hərbi Xidmət Qulluqçusu olaraq xidmət göstərirdi.**

Ayaz Tovuz döyüşlərinin iştirakçısı olmuş, Ağdam kəndində qəlpə yarası alaraq yaralanmışdı. Əmisi Elxan Nəzərov deyir ki, Ayaz vətənini sevən biri olub: "Nə vaxt zəng edirdik, fəxrlə, qürurla danışardı".

**Qohumu Rasim Ocaqquliyev: "Vətənpərvərlik onun içindən gələn bir hiss idi. Vətənə olan sevgisi onu hərbiyə gətirib çıxarmışdı. Tovuz döyüşlərində yaralıların daşınmasında, ilkin tibbi yardım göstərilməsində xüsusi rolu olmuşdu. Bayrağımızı o qədər sevirdi ki, Vətən müharibəsi başlayandan evlərinin önündə dalğalanırdı. Elə sevdiyi bayraqla da evlərinə qayıtdı...".**

2022-ci il yanvarın 11-i günorta saatlarında Ermənistan silahlı qüvvələrinin Kəlbəcər rayonu istiqamətində törətdiyi təxribat nəticəsində şəhid olmuşdur. 24 yaşlı Ayaz nişanlı idi və toyuna sayılı günlər qalmışdı. Buna görə də anasının istəyi ilə onun yas mağarı toy ab-havasında bəzədilmiş, xonçalar düzülmüşdü.

Anası Sima Tanrıverdiyeva deyir ki, Tovuz döyüşləri vaxtı qardaşına zəng edib deyib ki, haqqınızı halal edin, mən döyüşə gedirəm: "Oğlumla fəxr edirəm... Vətən sağ olsun!".

**Ayaz Nəzərov yanvarın 12-də yüzlərlə insanın iştirak etdiyi izdihamlı yürüşlə doğulub boya-başa çatdığı Bozalqanlı kənd qəbiristanlığında torpağa tapşırılıb.**

## Hərbi təhsilini donduraraq Vətən müharibəsində iştirak etmişdi



**2021-ci il noyabrın 16-da dövlət sərhədimizdə Ermənistanın təxribatları nəticəsində baş verən döyüş əməliyyatları zamanı şəhid olan 7 hərbçimizdən bir də leytenant Ümüd Oruc oğlu Niftəliyevdir. O, 1998-ci ilin oktyabrın 20-də Naxçıvanın Babək rayonunun Nehrəm kəndində anadan olub, 2006-cı ildə elə həmin kənddə orta məktəbə gedib. 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub.**

Ümüd 2020-ci il sentyabrın 29-da kursantlığının dördüncü ilində hərbi təhsilini dondurmuş və "kiçik leytenant" rütbəsi ilə Vətən müharibəsində iştirak etmişdir. Füzulinin, Cəbrayılın və Şuşanın azad edilməsi uğrunda qəhrəmanlıqla vuruşmuş, döyüşlər zamanı ayağından qəlpə yarası almışdır.

Şəhidin qardaşı Sərxan Niftəliyev deyir ki, Ümüd leytenant rütbəsini müharibəyə qatılmazdan əvvəl almışdı. Müharibə bitdikdən sonra isə geri qayıdaraq təhsilini tamamlamış və Laçında ilk hərbi xidmətinə başlamışdı.

**Sərxan qardaşı ilə son dəfə şəhid olmamışdan iki-üç gün əvvəl danışdığnı deyir: "Qardaşımla tez-tez danışırdıq. Sonuncu dəfə danışanda fəxrlə yüksəkliklərin nəzarətimiz altında olduğunu dedi. Ancaq, təəssüf ki, sonra maşınlarının vurulduğu və onun şəhid olduğu xəbərini aldıq".**

Laçın rayonu istiqamətində xidmət edən Ümüd Niftəliyev 2021-ci il noyabrın 16-da Kəlbəcər rayonu istiqamətində qarşı tərəfin təxribatının qarşısının alınması uğrunda keçirilən hərbi əməliyyatlarda vuruşmuş, döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur. Noyabrın 18-də doğulduğu Naxçıvanın Nehrəm kəndində dəfn olunmuşdur.

**Vətən müharibəsində iştirakına görə Ümüd Oruc oğlu Niftəliyev Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə "Döyüşdə fərqlənməyə görə", "Şuşanın azad olunmasına görə" medalları, ölümündən sonra isə 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edilmişdir.**

## Düşmən təxribatına qurban gedən qəhrəman



**Orxan Hətəm oğlu Cabbarov 1994-cü il sentyabrın 29-da Quba rayonunun Davudoba kəndində anadan olub. Azərbaycan Ordusunun giziri olan Orxan 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi uğrunda başlayan Vətən müharibəsində iştirak etmişdir. Cəbrayılın, Xocavəndin və Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Müharibə bitdikdən sonra O.Cabbarov Azərbaycan-Ermənistan sərhədində xidmətini davam etdirirdi.**

Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan sərhədinin Kəlbəcər və Laçın rayonları sahəsində genişmiqyaslı təxribat törədərək 2021-ci il noyabrın 16-sı qəfil hərbi əməliyyatlara başlamışdır. Ermənistan hərbçiləri bu istiqamətlərdə Azərbaycan Ordusunun mövqelərinə hücum etmişdir. Başlanan hərbi əməliyyatlarda iştirak edən gizir Orxan Cabbarov noyabrın 16-da döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuşdur.

2021-ci il noyabrın 18-də Qubada Şəhidlər xiyabanında dəfn olunmuşdur.

**Orxan Hətəm oğlu Cabbarov Vətən müharibəsində göstərdiyi şücaətlərinə görə Prezidentin Sərəncamı ilə "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları, ölümündən sonra isə 3-cü dərəcəli "Rəşadət" ordeni ilə təltif edilmişdir.**

**Aliyə SƏMƏDOVA**

# İşçilərin üzləşdiyi problemlər və onların həlli




**Təhsilə Dəstək Şəbəkəsinin və mədəniyyət işçilərinin görüşlərinin məqsədi bu sektorların nümayəndələrini bir araya gətirərək işçilərin üzləşdiyi problemləri və onların həlli üçün lazım olan resursları müzakirə etməkdir.**

Şəbəkənin 2021-ci il dekabrın 2-də keçirilən son iclası pandemiyanın bütün dünyada təhsil və mədəniyyət sahəsində ciddi pozuntulara səbəb olmaqda davam etdiyini açıq şəkildə göstərdi.

**Görüşdə diqqətçəkən məqamlar aşağıdakılardır:**

-mövcud pandemiya və onun getdikcə artan variantları ilə mübarizə aparmaq üçün TRİPS-dən imtina etmək vacibdir. "Omicron" variantının hazırda bütün dünyanı əhatə etməsi fonunda bu, xüsusilə aydındır.

-işçi çatışmazlığı məsələsi beynəlxalq səviyyədə həm təhsilə dəstək, həm də mədəniyyət sahəsində problem olaraq qalır. Hər bir məruzəçi işəgötürənlərin işçi qüvvəsini saxlamaq cəhdində qarşılaşdıqları çətinlikləri və bunun mövcud işçilərə təsirini qeyd edir.

-xüsusilə pandemiya fonunda təhsilə az investisiya qoyulması tələbələrin uğurlarına mənfi təsir göstərir.

**-COP26 pisləşən iqlim böhranını həll etmək üçün lazım olan iqlim sazişini təmin edə bilmədi. Ən pis iqlim böhranından qaçmaq üçün 2030-cu ilə qədər karbon emissiyaları ildə 7% azaldılmalıdır. 2020-ci ildə emissiyalar 6% azalıb. Biz nəzarət və gücün işçilərə, icmalara və ictimaiyyətə verildiyi ədalətli, dayanıqlı enerji sisteminə keçid istiqamətində işi davam etdirməliyik.**

# Həmkarlar ittifaqının qələbəsi

**Kanadada "Canada Goose" lüks gödəkçə istehsalı şirkətinin işçilərinin 86 faizi İndustriALL-ın üzv təşkilatı olan Birləşmiş Kanada İşçiləri Şurasına qoşulmağa səs verdi. Bu, Kanadada istehsalat işçiləri üçün son 30 ildə özəl sektorun (əksəriyyəti immiqrant qadın tikişçilərdən ibarət işçilərin) ən böyük qələbəsidir və üçillik səylərinin kulminasiya nöqtəsidir.**




Məlumatlara görə, işdən çıxarılma və intizamla bağlı problemlər var idi, bəzi işçilər isə işəmuzd ödəniş sistemini ədalətsiz hesab edirdilər. Həmkarlar ittifaqının qələbəsi isə ona gətirib çıxaracaq ki, iki fabrikdə çalışan 1200 işçinin iş yerlərində öz nümayəndələri olacaq və həmçinin onlar səs vermək hüququ qazanacaqlar.

**Təşkilat kampaniyasına "Canada Goose" işçilərindən ibarət böyük bir Komitə rəhbərlik edirdi. Onlar işdən sonra saatlarla həmkarları ilə öz yerli həmkarlar ittifaqının yaradılması barədə müzakirə aparmışlar.**

**Tələbələr, ictimai xadimlər və immiqrantların hüquqlarının müdafiəsi üzrə qruplar da işçilərin təşkilatlanma hüququna hörmət etməyə çağıran kampaniyaya qoşulmuşlar.**

"Mən bu gözəl qələbə ilə "Canada Goose" işçilərini təbrik etmək istəyirəm. Heç bir işəgötürən həmkarlar ittifaqı istəmir, amma şirkət rəhbərliyi neytral mövqe tutdu və işçilərinə demokratik seçimlərini həyata keçirmək hüququ verdi", - deyə "Workers United"in beynəlxalq təşkilat direktoru Riçard Minter bildirib.

İndustriALL-ın Baş katibi Atle Haye deyib ki, geyim təchizatı zəncirinin təşkili İndustriALL üçün prioritetdir və həmkarlar ittifaqının bu böyük qələbəsi üzv təşkilatlarımızın işçilərin hüquqları uğrunda daimi mübarizəsinin göstəricisidir.

**Qeyd edək ki, "SEİU"nun üzv təşkilatı olan "Workers United" Kanadada 10 minə yaxın işçinin maraqlarını təmsil edir. Amerika Birləşmiş Ştatları və Kanadada geyim, camaşırxana, ictimai iaşə, mehmanxana biznesi, qeyri-kommersiya təşkilatları, anbar və emal sənayesi sahəsində çalışan 86 minə yaxın işçi bu quruma daxildir.**

# BƏRABƏR ƏMƏKHAQQI SİYASƏTİ

**Avropa işçilərinin üçdəikisi Avropa Komissiyası tərəfindən verilmiş təkliflərə uyğun olaraq əməkhaqqının şəffaflığı tədbirlərindən kənarlaşdırılacaq. Əməkhaqqının şəffaflığı üzrə məcburi tədbirlər komissiyanın əsas siyasi vədlərindən biri idi. Və 460 günlük gecikmədən sonra, nəhayət, keçən ilin yazında əməyin ödənilməsinin gender şəffaflığına dair direktiv layihəsini dərc etdi. Lakin belə bir risk var ki, direktiv onun üzərinə düşən vədləri Komissiyanın gender hesabatını 250-dən çox işçisi olan təşkilatlarla məhdudlaşdırmaq qərarına görə doğrultmayacaq.**

Bu, Komissiyanın təsir qiymətləndirməsində gizlənən rəqəmlərə görə, avropalı işçilərin yalnız üçdəbirinin əməkhaqqı şəffaflığı ilə əhatə olunacağı anlamına gəlir. Komissiyanın təklif etdiyi əməkhaqqı şəffaflığı tədbirlərindən hər beş işçidən yalnız biri əhatə oluna biləcək. Ən böyük əməkhaqqı fərqinə malik üzv dövlətlərdə təsir daha da zəif olacaq (Estoniya və Latviya).

Böyük təşkilatlarda ən çox işçiyə sahib olan Fransada belə tədbirlər işçilərin yarısından azına təsir edəcək. Bu, işçilərin 35 faizindən çoxunun əhatə olunacağı üç üzv dövlətdən biridir.

Komissiya öz əməkhaqqı şəffaflığı vədinin təsirini əhəmiyyətli dərəcədə azaltmaqla yanaşı, əməkhaqqı hesabatının artıq 50-150 işçisi olan təşkilatlara şamil edildiyi 12 üzv dövlətdə milli qanunvericiliyi pozur. Yalnız Almaniyada Komissiyanın təklif etdiyindən daha yüksək həddi olan qanunlar mövcuddur.

Komissiya iddia edir ki, hədd siyasətin dəyərini məhdudlaşdırmaq üçün lazımdır, lakin onun təsirinin qiymətləndirilməsi göstərir ki, ödəniş şəffaflığı hesabatının dəyəri birinci ildən sonra əhəmiyyətli dərəcədə azalır. İlk ildə bu, hər bir işəgötürənə orta hesabla 315-500 avroya başa gələcək, lakin sonrakı illərdə bu məbləğ 100 avrodan aşağı düşəcək.




**Avropa Həmkarlar İttifaqları Konfederasiyası (ETUC) Avropa Parlamentindən keçən müddət ərzində əməyin ödənilməsinin gender şəffaflığı üzrə direktiv layihəsinin təkmilləşdirilməsinə yönəlmiş fəaliyyət həftəsi çərçivəsində rəqəmləri vurğulayır. FEMM və EMPL komitə üzvlərini bu ayın sonunda qanunvericiliyə baxarkən 250 işçi həddini aradan qaldırmağa təşviq edir.**

ETUC baş katibinin müavini Ester Linç deyib:

**"COVID böhranı qadınların üstünlük təşkil etdiyi əməyin qiymətləndirilməməsini həmişəkindən daha aydın göstərdi (aşağımaaşlı qadınlar əsas işçilərin əksəriyyətini təşkil edir). Əməyin ödənilməsinin şəffaflığı Avropada əməyin ödənilməsində 14% rüsvayçı gender boşluğu aradan qaldırmaq üçün güclü alət ola bilər.**

İndi bir çox işəgötürən qadınlarla eyni dəyərdə olan işi görmək üçün kişilərə xeyli çox pul ödədiklərini gizlətməyə davam edə biləcək. Bərabər əməkhaqqı hüququ işlədiyiniz şirkətin ölçüsündən asılı olmamalıdır. Avropa Parlamentinin deputatları indi çalışdıqları şirkətin imtiyazından asılı olmayaraq, bu direktivin işçilər üçün həqiqətən vacib olduğuna əmin olmalıdırlar.

**"Bərabər əməkhaqqı prinsipi 1957-ci ildən Avropa müqavilələrində təsbit olunub. Qadınlar bunu reallığa çevirilməsi üçün AB-nin əhəmiyyətli addımlarını kifayət qədər uzun müddət gözlədilər."**

# Rəqəmsal əmək platformaları




**Rəqəmsal əmək platformaları müasir dünyada adi hala çevrilib və gündəlik həyatımızın bir hissəsi olub. Platformalar son on ildə beş dəfə artıb və COVID-19 pandemiyasının başlanmasından sonra daha da qabarıq nəzərə çarpır.**

**Onlayn platformalar bizneslərə qlobal işçi qüvvəsinin işini autsorsinq etmək üçün yeni üsul təqdim edir. Platforma ilə işləmək veb-saytın dizaynı, proqram təminatının hazırlanması və ya alqoritmin öyrənilməsi kimi bir sıra vəzifələri əhatə edir. Onlar işin təşkili və tənzimlənməsi üsulunu dəyişirlər. BƏT-in araşdırmasına görə, rəqəmsal platformalar xüsusilə dünyanın müxtəlif yerlərində qadınlar, gənclər, əlillər və təcrid olunmuş qruplar üçün yeni imkanlar təklif edir.**

Bununla belə, rəqəmsal platformalar işçilər və öz-özünə işləyənlər arasında əvvəllər aydın olan fərqi də silir. Çox vaxt işçilər zəif maaş alır və onların gündəlik təcrübəsi alqoritmlərlə müəyyən edilir. Onlar həmçinin bir sıra hallarda sosial təminat, ödənişli məzuniyyətlər, minimum əməkhaqqı və kollektiv müqavilələr kimi ənənəvi məşğulluq imtiyazlarından məhrum olurlar.

# Tibb işçilərinin seçim azadlığı

**ABŞ-da səhiyyə və xəstəxana rəsmiləri tibb işçilərinin seçim azadlığına müsbət yanaşıb. Dekabr ayında xəstəliklərə nəzarət və qarşısının alınması mərkəzləri, yeddi gündən sonra simptomları olmayan tibb işçilərinin işə qayıda biləcəyini söyləyib. Onların koronavirusa qaşı testlərinin cavabı da mənfi olmalıdır. Bununla belə, xəstəxanaların daha çox işçiyə ehtiyacı olarsa, vaxt qısala bilər.**

Arizona ştatının Feniks şəhərində, böyük bir xəstəxana əməliyyat şirkəti tərəfindən işçilərin özlərini yaxşı hiss etdikləri təqdirdə işə qayıtmaq üçün icazə tələb edə biləcəyi deyilib. Bildirilib ki, işçilərimizin təhlükəsiz şəkildə işə qayıtmasını təmin etmək üçün əlimizdən gələni edirik.

Kaliforniyada xəstəxana işçiləri simptomları olmadığı müddətcə işə gedə bilərlər. Dövlət Səhiyyə Departamenti tibbi heyətin çatışmazlığına görə yoluxmadan sağalmış işçilərin COVID-19 cavabı müsbət olan xəstələrlə işləməsinə icazə verilə biləcəyini söylədi. İşçilər əlavə qorunmanı təmin etmək üçün maskalar taxmalıdırlar.



Kaliforniya Xəstəxanalar Assosiasiyasının sözçüsü Yan Emerson-Şi səhiyyə idarəçilərinin virusa yoluxmuş tibb bacılarının müalicəsi ilə bağlı yeni qaydalar tətbiq edə biləcəyini söylədi. Və əlavə etdi ki, yaxın günlərdə xəstəxanalarda müalicə edə biləcəklərindən daha çox xəstə ola bilər.

**Qeyd edək ki, ABŞ-da hər gün təxminən 300-700 minə yaxın insan virusa yoluxur. COVID-19 infeksiyası səbəbindən xəstəxanalara yerləşdirilən pasiyentlərin sayı orta hesabla 110 minə çatır. Bir il əvvəl pandemiyanın pik nöqtəsində gündə 124 min insan virusa görə xəstəxanaya yerləşdirilirdi. Eyni zamanda, bir çox xəstəxana işçisi xəstə olduğuna və ya test cavabı müsbət çıxdığına görə evdə özlərini təcrid edirlər.**




# XƏSTƏLİK MÜAVİNƏTİ ÇOX AZDIR

**Britaniya Həmkarlar İttifaqları Konqresi (TUC) 2021-ci ilin son ayında 267 mindən çox britaniyalı işçinin heç bir maaş almadan öz-özünə karantinə alındığını iddia edən bir araşdırma apardı. Bundan əlavə, həmkarlar ittifaqı iddia edir ki, özünütəcrid müddətinin beş günə endirilməsi ölkədə xəstəliyə görə ödəniş problemini həll etməyəcək.**

TUC işçilərin ya özlərini təcrid etmək və maddi sıxıntı ilə üzləşmək, ya da işdə qalmaq və virusun yayılmasına vasitə olmaq seçimi ilə üzləşdiklərini bildirir. Qeyd olunan işçilərin 57,9 min nəfəri, ümumiyyətlə, xəstəlik məzuniyyəti almayıb. Rəsmi rəqəmlərə görə, Böyük Britaniyanın özəl sektor işçilərinin 2,7 faizi və ya 723 min nəfəri hədiyyə gününə (26 dekabr) az qalmış iki həftə ərzində COVID-19 səbəbilə xəstəlik məzuniyyətində olub. Böyük Britaniyanın həmkarlar ittifaqları hesab edir ki, burada işçilər bütün Avropada ən az xəstəliyə görə ödəniş (96.35 funt sterlinq) alırlar ki, bu da orta həftəlik qazancın təxminən 15 faizini təşkil edir.

**TUC-un Baş katibi Frensis O'Qreydi deyib ki, heç kim düzgün iş görmək, özünü təcrid etmək və sair iş görməklə seçim etməyə məcbur edilməməlidir. Və əlavə edib ki, bu, 2021-ci ilin dekabrında özəl sektorun işçilərinin dörddəbir hissəsinin üzləşdiyi seçim idi. Baş katib bunu ictimai səhiyyənin uğursuzluğu adlandırıb. Deyib ki, pandemiyadan iki il keçməsinə baxmayaraq, qanunla müəyyən edilmiş xəstəlik müavinəti hələ də yaşamaq üçün çox azdır, iki milyon işçinin isə heç bir xəstəlik müavinəti ala bilməməsi inanılmazdır.**

**Səhifəni hazırladı: Azər MUSTAFAYEV**

ülfat
AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARININ QƏZETİ
Son səhifə
CÜMƏ AXŞAMI, 20 YANVAR 2022-Cİ İL / № 02 (1269)



# “Zenit” İC-nin boksçuları bürünc medal qazanıblar



**Kişi boksçular arasında Azərbaycan çempionatı keçirilib. Ölkənin müxtəlif şəhər və rayonlarının klublarını, həmçinin idman cəmiyyətlərini təmsil edən yarışda 29 komandanın 100 boksçusu qüvvəsini sınayıb. 5 gün davam edən turnirdə 13 çəki dərəcəsi üzrə mükafatçılar müəyyənləşib.**

Yarışda iştirak edən “Zenit” İdman Cəmiyyətinin yetirmələri Ramazan Abdullayev (60 kq.) və Elməddin İsmayılov ( 67 kq.) üçüncü yeri tutublar. İdmançılarımız yarışa təcrübəli məşqçi Təvəkkül Məmmədovun rəhbərliyi altında hazırlaşıblar.

Qeyd edək ki, mükafatçılar yığmanın heyətinə cəlb olunacaq və beynəlxalq yarışlarda ölkəmizi təmsil edəcəklər.

# “Məhsul” İdman Cəmiyyətinin yetirmələri fərqləniblər



**Boks Mərkəzində təşkil olunan kişi boksçular arasında Azərbaycan çempionatında 54 kq. çəki dərəcəsində mübarizə aparan “Məhsul” İdman Cəmiyyətinin yetirməsi Əhməd Əhmədov ikinci yeri tutub.**

Qeyd edək ki, yarış pandemiya səbəbindən karantin qaydalarına uyğun keçirilib.

***

Bakıda yeniyetmələr arasında cüdo üzrə Azərbaycan birinciliyi keçirilib. Paytaxtın Hövsan qəsəbəsindəki Fövqəladə Hallar Nazirliyinin (FHN) İdman Sağlamlıq Mərkəzində keçirilən yarışda ölkənin müxtəlif rayon və şəhərlərindən olan klublar, cəmiyyətlər və idman təşkilatlarından 570-ə yaxın (479 oğlan, 89 qız) idmançı mübarizə aparıb.

**Qızların yarışında iştirak edən “Məhsul” İdman Cəmiyyətinin yetirməsi Zeynəbxanım Əsədova (-70kq.) üçüncü yeri tutub.**

# Görülən işlər diqqətə çatdırıldı

**Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin onlayn formatda iclası keçirilmişdir. İclasda komitə üzvləri, ilk həmkarlar ittifaqı təşkilatlarının sədrləri, Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin Təşkilat işi və hüquq şöbəsinin müdiri Vüsal Məmmədov və başqaları iştirak etmişlər.**

Agentliyin Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Tural Əlizadə 2021-ci il ərzində görülən işlər haqqında geniş və ətraflı məlumat vermişdir. Sonra təşkilati məsələlərə baxılmışdır. Respublika Komitəsinin plenumunun hesabat-seçki yığıncaqlarının 2024-cü ilədək təxirə salınması barədə qərarı Agentliyin ilk həmkarlar ittifaqı komitə sədrlərinin nəzərinə çatdırılmışdır.

**Sonda müvafiq qərarlar qəbul olunmuşdur.**






# “Zəfər tv” kanalı aktiv fəaliyyətinə görə təltif olunub

***“Zəfər tv” kanalının təsisçisi və layihə rəhbəri, Dendrologiya İnstitutunun İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri, Dendrologiya İnstitutunun Həmkarlar İttifaqı Komitəsinin sədri Tünzalə Zeyvəliyeva Xəzər Rayon Gənclər və İdman İdarəsi tərəfindən Fəxri fərmanla təltif olunub.***

“Zəfər tv” sözügedən təltifə 2021-ci il ərzində keçirilən tədbirlərdə aktiv iştirakına və kanalın yayımında elmin son yenilikləri və nailiyyətləri, dövrün qloblal problemləri, eləcə də şəhid və qazilərin tanıdılması yönündə silsilə çəkilişlər apardığına görə layiq görülüb.

# Həm özün sağlam qal, həm də xəstələrə həyat ver

**“Bakı Metropoliteni” QSC və Metropoliten İşçiləri Həmkarlar İttifaqının birgə təşkilatçılığı ilə QSC İdarə aparatının binasında və “Nərimanov” elektrik deposunda ənənəvi qanvermə aksiyası keçirilib. Aksiyanın keçirilməsində məqsəd qan donorluğuna ehtiyacı olan insanlara yardım etmək olub.**



Aksiya Hematologiya və Transfuziologiya İnstitutunun Mərkəzi Qan Bankı tərəfindən ezam olunmuş xüsusi tibb briqadasının həkim-hemotoloqlarının tam nəzarəti altında keçirilib. Peşəkar tibb briqadasının mütəxəssisləri hər bir donoru müayinə edib, könüllülərdən qan nümunələri götürülüb və yekun rəy verilib.

Aksiyaya qoşulanlardan 266 nəfər qan donoru olub.

Tədbirin gedişində Mərkəzi Qan Bankının nümayəndələri qan donorluğunun əhəmiyyəti ilə bağlı metropolitençilərə məlumat verib, qanvermənin insanın öz sağlamlığı baxımından əhəmiyyətindən də söz açıblar.

**Metropoliten İşçiləri Həmkarlar İttifaqının təşəbbüsü ilə 2015-ci ildən “Bakı Metropoliteni” QSC-də qanvermə aksiyası hər il ənənəvi olaraq təşkil edilir.**

# Hüquq məsləhətxanası

**Şəhid adı kimlərə verilir?**

**Nazilə QULAMOVA, Gəncə şəhəri.**

-Nazirlər Kabinetinin 15 yanvar 1994-cü il tarixli 10 nömrəli qərarı ilə təsdiq edilmiş “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları” Şəhid - Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş, hərbi əməliyyatla əlaqədar itkin düşən və qanunvericiliklə müəyyən edilmiş qaydada ölmüş hesab edilən şəxsdir.

Qaydalara əsasən aşağıdakılar şəhid hesab edilirlər:

-1990-cı ilin yanvarında Bakı şəhərində, Lənkəran və Neftçala rayonlarında faciəli hadisələr nəticəsində həlak olanlar;

- 11 dekabr 1988-ci ildə Leninakanda qəzaya uğrayan təyyarədə həlak olmuş şəxslər;

- Azərbaycan Respublikasında 1988-ci ildən 1990-cı ilin yanvar ayınadək olan dövrdə sovet ordusunun qeyri-qanuni hərəkətləri və ya manevrləri nəticəsində həlak olmuş vətəndaşlar;

- Ermənistanla sərhəd rayonlarında və Qarabağda erməni təcavüzü, habelə ölkənin digər ərazilərində erməni hərbi təxribatı (hücumu, zərbəsi) nəticəsində həlak olmuş və itkin düşmüş mülki vətəndaşlar;

- Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlar zamanı həlak olmuş və itkin düşmüş hərbi qulluqçular;

- Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər hadisələrdə, o cümlədən atəşkəs dövründə döyüş şəraitində olan hərbi hissələrdə və ya daxili işlər, xüsusi dövlət mühafizə, dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarında döyüş tapşırığının və ya döyüş təminatı ilə bağlı tapşırıqların yerinə yetirilməsi üzrə xidməti vəzifəsinin icrası zamanı həlak olmuş, itkin düşmüş və məhkəmənin qərarına əsasən ölmüş hesab edilmiş şəxslər;

- Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi üzrə xidməti vəzifələrinin icrası zamanı həlak olmuş və ya itkin düşmüş hərbi qulluqçular.

**Əməyin mühafizəsi hansı iş yerlərində tətbiq edilməlidir?**

**Əli MƏMMƏDOV, Sumqayıt şəhəri.**

- Əməyin mühafizə norma və qaydaları işçilərin, istehsalat təcrübəsi keçən tələbə və şagirdlərin, müəssisələrdə işə cəlb edilən hərbi qulluqçuların, məhkəmə hökmlərinin icrası yerlərində işləyən məhkumların, təbii fəlakətin nəticələrinin aradan qaldırılmasına, habelə hərbi və fövqəladə vəziyyət rejimində işlərin görülməsinə cəlb edilən şəxslərin çalışdıqları bütün iş yerlərində hökmən tətbiq edilməlidir (Əmək Məcəlləsi, 208-ci maddə).

Müəssisənin mülkiyyətçisi və işəgötürəni işçilərin iş yerlərində əməyin mühafizəsi normalarının və qaydalarının yerinə yetirilməsinə bilavasitə cavabdehdirlər və qanunvericiliklə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etməlidirlər.

**Beynəlxalq müqavilələr, o cümlədən konvensiyalar hansı dövlət orqanı tərəfindən ratifikasiya edilir?**

**Ruslan MƏMMƏDOV, Bakı şəhəri.**

- “Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında” AR Qanununun 8-11-ci maddələrinə əsasən, dövlətlərarası və Azərbaycan Respublikasının qanunlarından fərqli qaydalar nəzərdə tutan hökumətlərarası müqavilələri Azərbaycan Respublikasının Milli Məclisi təsdiq (ratifikasiya) edir.

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən ratifikasiya üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilən beynəlxalq müqavilələrə Milli Məclisin müvafiq komitələrində qabaqcadan baxılaraq rəy verilir.

Azərbaycan Respublikasının Milli Məclisi müvafiq icra hakimiyyəti orqanı tərəfindən ratifikasiya üçün təqdim edilmiş Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinə baxır və müvafiq qanun qəbul edir.

Ratifikasiya üçün təqdim edilmiş beynəlxalq müqavilələr dövlət dilində olmalıdır. Rəsmi mətnləri dövlət dilində olmadıqda, beynəlxalq müqavilələr dövlət dilinə tərcümə edilməli və tərcümə edilmiş mətnin rəsmi mətnə uyğunluğunu təsdiq edən sənəd əlavə edilməlidir.

Qeyd etmək lazımdır ki, tərcümə edilmiş mətnin xarici dildə olan mətnə uyğunluğunu AR Xarici İşlər Nazirliyi təsdiq edir.

Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin ratifikasiyası haqqında Azərbaycan Respublikasının qanunu əsasında müvafiq icra hakimiyyəti orqanı ratifikasiya sənədini (təsdiqnaməni) imzalayır.

**Şəhid adını əbədiləşdirmə məqsədilə yerli rayon (şəhər) icra hakimiyyəti orqanları hansı tədbirləri həyata keçirməlidirlər?**

**Azad FƏRƏCOV, Sumqayıt şəhəri.**

- Qanunverciliyə əsasən, şəhid adını əbədiləşdirmə məqsədilə yerli rayon (şəhər) icra hakimiyyəti orqanları aşağıdakı tədbirləri həyata keçirirlər:

- Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı və Azərbaycanın Milli Qəhrəmanı olan şəhidlərin büstlərini qoyurlar.

- Azərbaycan Respublikasının Vətən Müharibəsi Qəhrəmanı və Azərbaycanın Milli Qəhrəmanı olan, habelə Vətən uğrunda döyüşlərə görə ordenlə təltif olunan şəhid adlarını küçələrə, meydanlara verirlər, təşkilatlara, müəssisələrə, hərbi və mülki gəmilərə verilməsi üçün Azərbaycan Respublikasının Nazirlər Kabineti qarşısında vəsatət qaldırırlar.

- “Şəhid” Memorial Kompleksini yaradırlar:

- Vətən uğrunda göstərilən qəhrəmanlıqla bağlı döyüş yerlərinin, habelə dəfn yerlərinin qorunması və abadlaşdırılması, qəbirüstü daşların, xatirə abidələrinin qorunmasını təşkil edirlər;

- Döyüş əməliyyatları getmiş yerlərdə xatirə nişanları qoyurlar və s.

**Sorğuları şərh etdi: AHİK-in Hüquq şöbəsi**

## ALLAH RƏHMƏT ELƏSİN!

Dövlət İdarələri və İctimai Xidmət İşçiləri HİRK-in sədri Hikmət Osmanov və aparat işçiləri Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) aparatının Həmkarlar İttifaqı Komitəsinin sədri Ziba Məmmədovaya atası

**QİYAS MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Neft və Qaz Sənayesi İşçiləri HİRK-in sədri Cahangir Əliyev və aparat işçiləri SOCAR-ın Nəqliyyat İdarəsinin HİK sədri Aqil Kərimova anası

**NƏRMİNƏ xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xəzər rayonu, 181 nömrəli tam orta məktəbin direktoru Nazilə Məmmədova, ilk həmkarlar ittifaqı təşkilatının sədri Fatma Zeynalova və məktəbin kollektivi iş yoldaşları Afaq Cəfərovaya anası

**TAMİLLA xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor:
AQİL DADAŞOV
Təsisçi:
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası

Qeydiyyat № 147
Tiraj: 7491
Sifariş: 144
Redaksiyanın ünvanı:
Bakı - 1005,
Gənclər meydanı 3
Telefonlar: 492-75-55; 492-42-47

“Azərtürk Bank”
Hesab nömrəsi:
AZ08AZRT3809001944
0000132001
Kod: 5:0:7:6:9:9
VÖEN: 1700349431
İndeks: 0271

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış, səhifələnmiş və “Azərbaycan” Nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
e-mail: ulfet-az@mail.ru
Sərbəst qiymət